www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 aprel 2016-cı il Çərşənbə axşamı № 77 (6398) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda ər boşanmaq istəyən arvadına küçədə 8 bıçaq vurdu

yazısı səh.14-də

**Gündəm**

### Şəhid pilotlarımız və polkovnik-leytenant Fəxri Xiyabanda dəfn edildilər



**Nazir Zakir Həsənov:** "Şəhidlərimizin qisasının alınacağına heç kimin şübhəsi olmasın"

yazısı səh.3-də

### Ermənilər Konqresdəki adamlarının "düyməsini basdı"

yazısı səh.3-də

### Bakıda təhlükəsizlik tədbirləri gücləndirilib - terror gözləntisi varmı?

yazısı səh.7-də

### Gül bayramının formatı dəyişdi

yazısı səh.4-də

### Tibb Universitetinə yeni rektor təyin olundu

yazısı səh.2-də

### Bakıda MTK "terroru" - minlərlə vətəndaş çarəsiz qalıb

yazısı səh.4-də

### Ermənistanın işğalçılığı ilə bağlı petisiyaya necə səs verək?

yazısı səh.5-də

*Müdafiə Nazirliyi:*

### "Azərbaycan ordusu ölülərlə müharibə aparmır"

yazısı səh.2-də

### Xüsusi istedadlı gənclər və evin tək övladları hərbi xidmətdən saxlansınmı?

yazısı səh.13-də

### 4 günlük savaşda dövlətlər sınaqdan necə çıxdılar…

yazısı səh.8-də

### Bakıda "narkotik" satan kafelər

yazısı səh.15-də

### Ermənistan təlaşda; düşmən ölkə İsraili Bakıya silah satmamağa çağırır

yazısı səh.9-da

## 4 günlük savaşla bağlı şimaldan təhlükəli gözlənti

# KREML BAKI VƏ ANKARAYA REVANŞ-SÜRPRİZ HAZIRLAYIR - İDDİA

Prezidentlər Əliyev və Ərdoğanın qarşılıqlı səfərlərinin gözlənildiyi apreldə, uydurma soyqırımın ildönümündə iki qardaş ölkə yeni sınaqla üzləşə bilər; türkiyəli analitik xəbərdarlıq edir: "Azərbaycan Türkiyəyə yaxınlaşdıqca Rusiya Qarabağ kartından daha güclü istifadə edəcək..."




yazısı səh.9-da

## "...Bu, qələbə müharibəsidir" - tanınmış ekspertdən sensasion açıqlamalar

Mehman Əliyev: "Bu müharibənin özündə beynəlxalq güclər maraqlı idi; məqsəd həm də o idi ki, Azərbaycan ordusu öz torpaqlarını azad etməyə qadir olduğunu nümayiş etdirsin"; Ermənilərdə ruslara qarşı daha böyük nifrət var, nəinki bizdə..."

yazısı səh.6-da



*Vahid Əhmədov:*

### "Şəhid ailələrinə təzminatı 20-30 min manata qədər qaldırmaq olar"

yazısı səh.13-də



*Şahin Cəfərli:*

### "Əlverişsiz sülhdənsə, münaqişənin daha bir müddət həll olunmamış qalması daha sərfəlidir..."

yazısı səh.5-də



*Tahir Süleyman:*

### "Ermənilər kürdləri tarixən düşmən hesab edib"

yazısı səh.12-də




## Müdafiə Nazirliyi: "Azərbaycan ordusu ölülərlə müharibə aparmır"

**Erməni tərəfinin Azərbaycan hərbiçilərinin erməni əsgərlərinin cəsədlərini təhqir etmələri ilə bağlı yaydığı bəyanatlar həqiqətəuyğun deyil. Virtualaz.org xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.**

"Erməni tərəfi belə bəyanatlar yaymaqla dünya ictimaiyyətinin diqqətini Qarabağ münaqişəsi ilə bağlı yanlış istiqamətə yönəltməyə və azərbaycanlıları vəhşi kimi təqdim etməyə çalışır", - deyə məlumatda vurğulanır.

Məlumatda həmçinin qeyd olunur ki, Azərbaycan tərəfi ölən şəxslərlə humanist davranır, heç bir təhqir və işgəncə faktları olmayıb: "Azərbaycan ordusu ölülərlə müharibə aparmır. Ermənistan Azərbaycanın humanistliyini qiymətləndirərkən nəzərə almalıdır ki, hərbi əməliyyatları biz dayandırdıq və beləliklə, həm də daha çox erməni hərbiçisinin məhv olmasının qarşısını aldıq".

"Biz ölən əsgərlərimizin valideynlərinin, ailə üzvlərinin emosional vəziyyətini nəzərə alaraq, erməni tərəfindən hərbi qulluqçularımızın meyitlərinin təhqir olunması ilə bağlı faktları bildirmədik. Azərbaycan əsgərləri heç vaxt ermənilərin etdikləri vəhşilikləri edə bilməzlər. Erməni tərəfi belə bəyanatlar yaymaqla Azərbaycanı dünya ictimaiyyətinə vəhşi kimi təqdim etmək niyyəti güdür", - deyə məlumatda bildirilir.

## Həbs edilmiş iş adamının Beynəlxalq Banka olan borcu açıqlandı



**Azərbaycandan çıxmaq istəyərkən saxlanılan iş adamı Səməd Sadıqovun hansı banka nə qədər borcu olduğu açıqlanıb. "Report"un məlumatına görə, "Bermud City" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) rəhbəri, "CityTV" televiziyasının təsisçisi və direktoru olan iş adamı "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən 4 milyon 410 min manat kredit götürərək qaytarmamaqda ittiham edilir.**

2015-ci ilin oktyabr ayının 12-də S.Sadıqov barəsində Nərimanov Rayon Məhkəməsində iki ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Daha sonra iş adamı barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti iki dəfə uzadılıb.

Bu gün S.Sadıqovun hüquqlarını müdafiə komitəsi onun həbsi ilə bağlı müraciət də yayıb. İş adamının müdafiəçiləri onun qanunsuz həbs olunduğunu qeyd edirlər: "Müqavilə üzrə 2020-ci ilə qədər ödənilməsi nəzərdə tutulan kreditə görə iş adamının həbsdə saxlanılması qanunsuzdur. Biznesdə 10 ildən artıq təcrübəsi olan Səməd Sadıqovun biznesinin ümumi dövriyyəsi 2015-ci ildə 12 milyon dolları ötüb".

Qeyd edək ki, iş adamı barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb.

Xatırladaq ki, 2015-ci il oktyabrın 11-də Dövlət Sərhəd Xidməti əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Balakən rayonu Mazımçay kəndi ərazisindəki zastavanın xidməti sahəsindən dövlət sərhədini Azərbaycandan Gürcüstan istiqamətində pozmağa cəhd göstərən Səməd Qüdrət oğlu Sadıqov saxlanılıb. Rəsmi məlumata əsasən, müəyyən edilib ki, S.Sadıqov dövlət banklarına olan külli miqdarda borcunu ödəməkdən yayınmaq məqsədilə ölkəni qeyri-qanuni yolla tərk etmək niyyətində olub.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Prezident BMT-nin yeni rezident əlaqələndiricisini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul edib. APA-nın məlumatına görə, Q. İsakzai etimadnamə məktubunu prezident İlham Əliyevə təqdim edib.**



İ. Əliyev Azərbaycanın BMT-nin bir çox təsisatları ilə sıx əlaqələr qurduğunu, ölkəmizin təşkilatla çox fəal əməkdaşlıq həyata keçirdiyini deyib. Bakının BMT-nin bir neçə mühüm tədbirinə ev sahibliyi etdiyini bildirən dövlət başçısı Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının təsisatlarında iştirakını uğurla davam etdirəcəyinə ümidvar olduğunu deyib.

Son iyirmi il ərzində təmsil etdiyi qurumla Azərbaycan arasında səmərəli əməkdaşlıq həyata keçirildiyini bildirən Q. İsakzai BMT-nin Azərbaycan hökuməti ilə mövcud olan tərəfdaşlıq əlaqələrini gücləndirmək niyyətində olduğunu deyib. O, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirib, yoxsulluğun azaldılması, infrastrukturun yenidən qurulması istiqamətində əldə olunan nailiyyətlərin önəmini vurğulayıb. Ötən səfərindən keçən dövr ərzində ölkəmizdə mühüm dəyişikliklərin şahidi olduğunu qeyd edən Q. İsakzai bu inkişafa Heydər Əliyev və prezident İlham Əliyevin rəhbərliyi altında nail olunduğunu vurğulayıb. Təşkilatın ölkəmizlə əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu bildirən Q. İsakzai BMT-nin Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi işinə dəstək verə biləcəyinə ümidvar olduğunu deyib.

İlham Əliyev ölkəmizlə BMT arasında çox fəal əməkdaşlıq əlaqələrinin olduğunu məmnunluqla qeyd edib. Yoxsulluğun azaldılmasının ən böyük nailiyyətlərimizdən biri olduğunu deyən dövlət başçısı bütün ölkə miqyasında yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində iş aparıldığını, məşğulluğun yeni mexanizmlərinin təqdim olunduğunu, sosial proqramların həyata keçirildiyini bildirib, görülən tədbirlərin yoxsulluğun aradan qaldırılması işinə böyük töhfə verəcəyini qeyd edib. Qarşıya qoyulmuş məqsədlərə qısa müddət ərzində nail olunması üçün təşkilatın ölkəmizin müvafiq qurumları ilə birgə fəaliyyət göstərməsinin, Azərbaycanın bu istiqamətdə irəli sürdüyü təşəbbüslərin dəstəklənməsinin vacibliyini vurğulayıb.

Prezident Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmasının ölkəmiz üçün yaxşı təcrübə olduğunu diqqətə çatdırıb. Dövlət başçısı BMT-nin Sivilizasiyalar Alyansının bu yaxınlarda Bakıda keçiriləcək VII Qlobal Forumunun əhəmiyyətinə toxunaraq Azərbaycanın dünyaya təqdim olunması, eyni zamanda ölkəmizin inkişaf sahəsində qazandığı təcrübəni bölüşməsi baxımından tədbirin önəmini qeyd edib.

## Şura QHT-lər arasında atıcılıq üzrə çempionat keçirəcək

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Ulu Öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar "QHT-lər arasında atıcılıq çempionatı" təşkil edəcək. Çempionat 9 may 2016-cı il tarixində Bakı Atıcılıq Mərkəzində keçiriləcək.**

Çempionatda iştirak edəcək hər bir komandada 1-dən 5-ə qədər QHT təmsil oluna bilər. Atıcılıq çempionatında iştirak etmək istəyən QHT-lər komandanın adını, üzvlərinin ad və təvəllüdlərini və əlaqə vasitələrini yazaraq 30 aprel 2016-cı il-ədək office.asu@gmail.com elektron poçtuna göndərməlidirlər.

Yarışda iştirak edəcək komandaların seçimi Azərbaycan Respublikasının Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən aparılacaq.

Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilati dəstək verdiyi layihənin koordinatoru Azərbaycan Tələbələr Birliyidir.

Əlaqə vasitələri: (+994) 50 359 89 86, (+994) 12 493 17 80



## Lələtəpədə dalğalanan İlham Zəkiyevin Avropa Oyunlarında qaldırdığı bayraqdır

**Lələtəpə yüksəkliyində dalğalanan bayraq paralimpiya üzrə dünya və Avropa çempionu İlham Zəkiyevin Avropa Oyunlarında qaldırdığı bayraqdır. BAKU.WS-in məlumatına görə, bu barədə İlham Zəkiyev açıqlama verib.**

"Avropa Oyunlarında iyunun 26-da - Azərbaycan Silahlı Qüvvələri Günündə güləşirdim. Cənab prezident boynuma medalı asanda öncə onu bu gün münasibətilə təbrik etdim, sonra onu fəxri kürsüyə dəvət etdim. Sağ olsun, dəvətimi qəbul etdi, mənimlə fəxri kürsüyə qalxdı. Orada ona dedim ki, cənab Ali Baş Komandan, əsgər Zəkiyev verdiyiniz döyüş tapşırığını yerinə yetirdi, yeni qızıl medalı qazandı. O da məni qucaqlayıb öpdü və dedi ki, Azərbaycan sənlə fəxr edir.

Bu yarışın ardınca Müdafiə Nazirliyinin xətti ilə ön cəbhəyə yollandım. Bildirdilər ki, düşmənlə üz-üzə olan əsgərlər səni görmək istəyirlər.

Mən də böyük məmnuniyyətlə təklifi qəbul etdim və iyulda ön cəbhəyə getdik. Şəmkir korpusundan başlayaraq, Murovdağ silsiləsindək postlarda olduq, orada əsgərlərlə görüşdük. Goranboya, Ağdama getdik. Sonda qulluq etdiyim Beyləqan - Füzuli istiqamətindəki hərbi hissəyə yollandıq. Orada kəşfiyyatçılarla da görüşdüm. Avropa Oyunlarında dalğalandırdığım bayrağı da özümlə aparmışdım və onlara təhvil verdim. Dedim ki, bu bayrağı mən öz nailiyyətlərimlə idman arenasında dalğalandırdım, sizin də işiniz torpaqlarımızı azad edib, onu Xankəndində, Şuşada dalğalandırmaqdır. And içib, bayrağı qəbul etdilər və hazırda düşməndən azad olunan Lələtəpədə ucalan bayraq həmin bayraqdır. Mən də əlaqə saxladım ki, sizə bunu Şuşada, Xankəndində dalğalandırmağı demişdim, Lələtəpədə yox. Bildirdilər ki, İlham, gedirik, inşallah, ora da çatacağıq", - Zəkiyev qeyd edib.

## Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi yaradıldı

**Prezident İlham Əliyev aprelin 11-də "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərman imzalayıb.**

APA-nın məlumatına görə, prezidentin fərmanı ilə Mənzil İnşaatı Dövlət Agentliyi haqqında Əsasnamə və agentliyin strukturu təsdiq edilib. Mənzil İnşaatı Dövlət Agentliyi işçilərinin ümumi say həddi 60 ştat vahidi müəyyənləşdirilib, agentliyin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb.

Fərmana əsasən, "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının müəyyən olunması, habelə cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.



## Tibb Universitetinə yeni rektor təyin olundu

**Azərbaycan Tibb Universitetinə yeni rektor təyin olunub. Bu barədə lent.az-a Azərbaycan Tibb Universiteti mətbuat xidmətinin rəhbəri Günel Aslanova məlumat verib. G.Aslanova bildirib ki, təhsil ocağının yeni rəhbəri Gəray Gəraybəylidir. Yeni rektoru kollektivə səhiyyə naziri Oqtay Şirəliyev təqdim edib.**

Qeyd edək ki, Gəray Gəraybəyli bu təyinatadək respublikanın baş psixiatrı vəzifəsində çalışıb. Universitetdən yeni təyinatla bağlı geniş açıqlama veriləcəyi bildirilib.

## "Son döyüşlər nəticəsində tərəflərdə saxlanılanların olması barədə rəsmi məlumat yoxdur"

**Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində son günlər baş verən gərginlik nəticəsində tərəflərdə hərbçilərin saxlanılması barədə Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) rəsmi məlumat verilməyib.**

Bu barədə APA-ya BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.

O qeyd edib ki, BQXK münaqişə tərəflərinə itkin düşmüş şəxslərin taleyini aydınlaşdırmaq üçün olan səylərinə öz aktiv dəstəyini təklif edib və təmas xəttində, Dağlıq Qarabağ münaqişəsinin son gərginləşməsi zamanı həlak olanların meyitlərinin öz tərəflərinə təhvil verilməsinə yardımçı olub.

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# Şəhid pilotlarımız və polkovnik-leytenant dəfn edildi

**Aprelin 2-də gedən döyüşlərdə erməni mövqelərinə aviasiya zərbələri endirən zaman düşmən tərəfindən vurulan Mİ-24 helikopterində şəhid olan hərbiçilərimiz - mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə, Bəkir İsmayılov və Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı Murad Mirzəyevlə izdihamlı vida mərasimi keçirilib.**







## Nazir Zakir Həsənov: "Şəhidlərimizin qisasının alınacağına heç kimin şübhəsi olmasın"

Musavat.com-un məlumatına görə, vida mərasimi aprelin 11-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində baş tutub. Cənazələri ermənilərdən alınan şəhidlərimizlə vida mərasimində böyük izdiham müşahidə olunub.

Dəfn mərasimində icra başçıları, deputatlar, digər dövlət rəsmiləri, Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, şəhidlərin ailə üzvləri iştirak edib. Rəsmi mərasimdə müdafiə naziri Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov da iştirak ediblər. Prezident İlham Əliyevin də adından mərasim zalına gül çələngi göndərilib.

Müdafiə naziri rəsmi vida mərasimində çıxış edib. Z.Həsənov şəhidlərin ailə üzvlərinə onların qisasının alınacağı vədini verib.

**Aprel ayının əvvəlindən cəbhə xəttində başlayan döyüşlərdən danışan nazir bildirib ki, düşmən təxribatlarının qarşısı hər zaman alınıb və bundan sonra da alınacaq:** "Bu mərasimdə danışmaq çətindir. Ermənilər Azərbaycana qarşı cinayət törədiblər və törətməkdə də davam edirlər. Bunun qarşısı alınmasa, davam edəcəklər. Bizim şəhidlər bütün dünyaya sübut etdi ki, onlar qəhrəmandır. Onlar vətən uğrunda canlarından keçdilər. Nazir prezidentin çıxışından sitat gətirərək **"Azərbaycan ordusunun hər bir əsgəri, zabiti bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyü nəyin bahasına olursa-olsun qorunacaq"**, - deyib. Z.Həsənov çıxışının sonunda şəhidlərin qisasının alınacağı vədini verib: "Buna heç kimin şübhəsi olmasın".

Vida mərasiminin rəsmi hissəsindən sonra şəhidlərin ailə üzvləri sonuncu dəfə tabutlara salınaraq şəhidləri ilə vidalaşıblar.

Şəhid pilotlarımızla vida mərasimində mayor Təbriz Musazadənin iki oğlu da iştirak edirdi. Onlar mətbuata qısa açıqlama veriblər. 10 yaşlı Tayfun Musazadə atası ilə fəxr etdiyini, onun vətən uğrunda şəhid olduğunu deyib. 10 yaşlı Tayfun "Şəhidlər ölməz" deyərək atasının daim onun qəlbində yaşayacağını bildirib.

7 yaşlı Onur Musazadə isə vida mərasiminin keçirildiyi zalda atasının fotosunu öpərək "o mənim qəhrəmanımdır" deyib.

Vida mərasimindən sonra şəhid pilotlar və polkovnik-leytenant II Fəxri Xiyabanda torpağa tapşırılmaq üçün Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzindən yola salınıb. Şəhidlərin cənazələri yaxınlarının, tələbələrin, şagirdlərin, dövlət rəsmilərinin qatıldığı izdihamlı yürüşlə II Fəxri Xiyabana aparılıb.

Şəhid pilotlar və Xüsusi Təyinatlı Qüvvələrinin polkovnik-leytenantı II Şəhidlər Xiyabanında torpağa tapşırılıblar. Dəfn mərasimində şəhidlərin yaxınları, dövlət və hökumət rəsmiləri, müdafiə naziri Zakir Həsənov, sərhəd qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev, hərbi prokuror Xanlar Vəliyev, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov, hərbi hava qüvvələrinin komandanı, general-leytinant Ramiz Tahirov da iştirak edib.

Yaylım atəşi açıldıqdan sonra Azərbaycanın dövlət himni səsləndirilib. Şəhidlərin tabutu bükülmüş bayraq yaxınlarına verilib. Dəfn zamanı "Şəhidlər ölməz, vətən bölünməz!" şüarı səsləndirilib.





Düşmən təxribatına cavab olaraq torpaqlarımızın qorunmasında mərdliklə döyüşərək şəhid olan qəhrəman oğullarımızdan biri də Pəncəli Nurməmməd oğlu Teymurovdur.

AzNews.az xəbər verir ki, Talış kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin giziri Pəncəli Teymurov aprelin 11-də doğulduğu Astara rayonunun Əzərüd kəndində torpağa tapşırılıb.

Şəhid yaylım atəşindən sonra torpağa tapşırılıb, onun tabutuna bükülmüş Azərbaycanın üçrəngli bayrağı atası Nurməmməd Teymurova təqdim edilib.

❑ **İlkin MURADOV**
❑ **Fotolar müəllifindir**

# Ermənilər Konqresdəki adamlarının "düyməsini basdı"

## Yeganə Hacıyeva: "Erməni lobbisinin əsas məqsədi qondarma rejimə humanitar yardım almaqdır"



**ABŞ-dakı erməni lobbisi məkrli siyasətinə davam edir. 4 günlük savaşda darmadağın olan Ermənistanın ABŞ Konqresindəki erməni məsələləri üzrə həmsədrləri Robert Dold və Frank Pallon prezident Barak Obamanı Azərbaycanın Qarabağa hücumunu pisləməyə və Bakıya hərbi yardımı dayandırmağa çağırıblar.**

Musavat.com xəbər verir ki, bu barədə Erməni Milli Komitəsi məlumat yayıb. Görünən budur ki, məkrli düşmən ABŞ Konqresində ciddi fəaliyyətə başlayıb, Ali Baş Komandan İlham Əliyevi hədəf götürüb. Bu da təsadüfi deyil. Prezident Əliyev bütün erməni lobbisinin intensiv əks-kampaniyasına baxmayaraq, ABŞ-ın prezident administrasiyası ilə iqtidarının münasibətlərini düzəldə bilib və ehtimal olunur ki, dünyanın ən nəhəng hərbi təsisatı sayılan Pentaqonun da Azərbaycanın Rusiya qarşısında dirənişi prosesi üçün dəstəyini ala bilib. Məhz Azərbaycan prezidentinin uğurlu ABŞ səfərindən dərhal sonra Qarabağda erməni provokasiyalarının başlaması təsadüfi deyil. Lakin Azərbaycan bu təxribatlara görə erməniləri peşman etdi və indi uzaq Amerikadakı məkrli erməni diasporu "günahsız ermənilər ölür"- deyə, fəryad edir.

"Biz Robert Dold və Frank Pallonun çağırışını dəstəkləyirik. Amerika ilk növbədə Azərbaycanın aqresiyasını və onun ordusunun günahsız erməniləri öldürməsini pisləməlidir. İlham Əliyevin Amerikadan kömək almağa ehtiyacı yoxdur". Bu sözləri Amerikadakı Erməni Milli Komitəsinin icraçı direktoru Aram Hamparian deyib. Məlumata görə, Amerika prezidentinə öz məktubunda erməni qrupunun həmsədrləri onu da bildirib ki, Amerika Dağlıq Qarabağa təcili humanitar yardım etsin və Azərbaycan tərəfinin Qarabağda törətdiyi dağıntıların istintaqını aparsın.

Erməni lobbisinin Obamaya müraciəti Azərbaycan ictimaiyyəti arasında geniş müzakirələrə səbəb olub. Hər kəs hiddətlə təcavüzkar ölkənin müraciəti ilə bağlı adekvat addımların atılmasından danışır. Müzakirələrin fonunda Azərbaycan lobbisinin Amerikadakı zəif fəaliyyəti də tənqid edilir.

Əksəriyyət müraciəti Azərbaycan prezidentinin uğurlu ABŞ səfəri və Azərbaycan-Qərb münasibətlərinin düzəlməsi, eləcə də 4 günlük savaşda düşmən ölkənin acınacaqlı məğlubiyyəti ilə əlaqələndirir.

**Politoloq Yeganə Hacıyeva Azərbaycanla Qərb arasındakı münasibətlərdə olan yaxınlaşmanın erməni lobbisinin daha da fəallaşmasına səbəb olduğu qənaətindədir:** "Aprelin 7-də Erməni Milli Komitəsində keçirilən görüş zamanı Konqres və Obamaya müraciət qəbul edilib. Müraciət konqresmenlər Frenk Pollone, Robert Dold, Adam Shiff, Bred Sherman adından qəbul edilib, senator Mark Kirk, konqresmenlər Devid Valdao, Cim Kostanın, Qreys Napalitano, Linda Sanches, Cudi Cunun, xarici işlər üzrə komitə üzvü Devid Sissilin fikirləri əsasında formalaşdırılıb. ABŞ-da erməni lobbisinin tarixi bizim kimi quruluşların tarixindən dərindir. Biz son 23 ildə bu quruluşları formalaşdırmağa çalışırıq, erməni lobbi qrupu isə bugünlərdə 100 illik tarixlərini qeyd etməyə hazırlaşırlar. Amma son 23 ilin Azərbaycan üçün lobbi institutunun formalaşdırılmasında səmərəli olduğu qənaətində deyiləm. Lobbiçilik uzunmüddətli, siyasi, iqtisadi, ictimai və qanunverici əsaslar olan, çoxpilləli və çoxsaxəli mexanizmləri olan bir fəaliyyətdir. Bu fəaliyyət apardığı ölkənin yerli spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmalı və heç bir halda müvəqqəti olmamalıdır. Bu tip lobbi fəaliyyətində uğurlu nəticələr əldə etmək çətindir. Çox təəssüf ki, bizim lobbi fəaliyyəti ənənəvi diaspora yanaşması əsasında aparılır".

**Siyasətçi xanım ölkə başçısının hədəfə götürülməsinə də münasibət bildirdi:** "Bu müraciətin ana xəttində cəbhədəki son gərginliyin Azərbaycan tərəfinin və şəxsən prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə olduğu göstərilib. Çağdaş qlobal siyasətdə istər dövlətlərarası, istərsə də beynəlxalq münasibətlərdə maraqların təmin edilməsində mühüm alətlərdən biri də məhz informasiya müharibəsidir. Və biz bunun şahidi oluruq. İstər cəbhədəki sonuncu gərginlik, istərsə də bu gərginliyin siyasi arenaya daşınması cəhdlərinin kökündə məhz bu dayanır və erməni lobbisinin daha da fəallaşmasına səbəb budur. Çağdaş dövrün öz qaydaları var. İnformasiyaya nəzarət edənlər prosesə nəzarət edirlər. Yaxın tarixdə bunun dəfələrlə şahidi olmuşuq. Yeni nəslin müasir kommunikasiya imkanlarından istifadə edərək uğurlarımızı xarici siyasətə daşıya biləcəyimizə inanıram".

**Yeganə Hacıyevə erməni lobbisinin əsas məqsədinin qondarma rejimə humanitar yardım almaq olduğunu qeyd etdi:** "Azərbaycan tərəfinin törətdiyi dağıntılar haqqında istintaqın aparılması müraciəti hüquqi tərəfdən legitim deyil və siyasi avantüradan başqa bir şey deyil. Belə ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləyir və hər bir suveren dövlətin öz ərazisində antiterror əməliyyatı aparmaq hüququ var. Azərbaycan ordusunun son əməliyyatları Dağlıq Qarabağ deyil, ətraf rayonlarda aparılmışdır və bu, onun müstəsna hüququdur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016



# Vətənpərvər, yoxsa vətənşivən Əli Kərimli?

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Müharibənin öz qaydaları var. Döyüş zamanı kimsənin öz maraqlarını önə çəkməsinə, siyasi manevrlər etməsinə dözülmür, dözülməməlidir, düşmən əlinə oynayan adamlar qətiyyən bağışlanmır və bağışlanmamalıdır. İkinci Dünya müharibəsində SSRİ-nin faşizm üzərində qələbə çalmasının əsas səbəbi məhz Stalinin sərt qaydaları idi...**

Bu, bir növ vaxtsız banlayan xoruzun başının üzülməsi ilə müqayisə edilə bilər...

***

Ötən yazımızda qeyd etdiyimiz kimi, ordu savaşarkən ölkədə "çatlaq səslər"in gəlməsi açıq-aşkar xəyanətdir. 2-5 apreldə ölkəmizdə müharibə gedərkən Əli Kərimli "cəbhəsi" öz xislətinə uyğun davrandı. Bunu ifşa etdik. Dərhal da Əlinin zombi dəstəsi təhqirlərə başladı. Eyni zamanda bir sürü başıpozuq dəstə ona haqq qazandırmağa çalışır ki, bu adam neyləyib ki?

Burada bir mühüm məqama diqqət etmək gərəkir. Əli Kərimlinin içini xılt basmasına, məkrli, dağıdıcı biri olmasına rəğmən siyasi hiyləgərliyi də etiraf olunmalıdır. Necə deyərlər, baş çevik başdır, heyf ki, qarpıza işləyir... Məhz hiyləgərcəsinə hamıdan öncə bir bəyanat verdi ki, erməniyə qarşı biz də xalqla, hökumətlə eyni mövqedəyik, iqtidar narahat olmasın, sakit dayanacağıq, siyasi hoqqabazlıqlar etməyəcəyik, biz də döyüşəcəyik...

Lakin ikicə gün sonra adamın iç üzü açıldı; ordumuz erməni təxribatlarının qarşısını alandan, üstəlik, mühüm yüksəklikləri də ələ keçirəndən sonra durum ateşkəsi tələb edirdi. Döyüşlərin davam etdirilməsi dövlətimizə qarşı çevrilə bilərdi, əldə etdiyimiz mövqeləri *(həm ərazi olaraq, həm də diplomatik baxımdan)* də itirə bilərdik. Rusiya isə pəncəsini açıb gözləyirdi - Saakaşvilinin 2008-ci ildə buraxdığı səhvi buraxa bilməzdik. Belə bir məqamda ateşkəs əldə olundu. Əli Kərimlinin hiyləsi məhz bu anda üzə çıxdı; adam "müharibə davam etməlidir", "hakimiyyət hesabat verməlidir" kimi oyunbazlıqlara başladı. Adam o zaman haqlı görünərdi ki, ailə və çevrəsindəki əsgər yaşlı yaxınlarını da yanına alsın, onları xaricdə gizlətməsin, ölkəyə gətirsin, israrla müraciət etsin ki, savaşda özü də iştirak etmək istəyir. Desin biz də döyüşə qoşuluruq, davam edək. Amma yaxınları Avropada, özü bütün günü facebookda avaralanan "lider" deyir ki, xalqın balaları savaşsın, şəhid olsun, biz də öz siyasi oyunlarımızı oynayaq...

Yeri gəlmişkən, bütün ağrılı proseslərdə şou düzəltməyə adətkərdə olan bu şoumen "lider" yalnız bircə dəfə şəhid dəfnində iştirak etdi. Ondan sonra məkrli planlarına girişib, başı yaramaz işlərə qarışıb. Bəhanə də edir ki, hakimiyyət şəhidlərin dəfnində, yasında iştiraka imkan vermir. Adam, sən görmürsənmi İsa Qəmbər, Arif Hacılı indiyədək neçə şəhidin dəfn mərasiminə qatılıb? Elə aprelin 11-də də Mehdiabadda İsa Qəmbərin şəhid yasından fotolarına sosial şəbəkədə rast gəldim. Sən özünü nə sayırsan? Əgər məqsədin şou düzəltmək deyildisə, səssiz-küysüz, İsa Qəmbərlə, Arif Hacılı ilə birlikdə dəfn mərasimlərinə, yas məclislərinə qatıla bilərdin. Sən göydən səbətdə düşməmisən! Əksinə, tam lazımsız birisən! Belə adama vətənpərvər yox, vətənşivən deyirlər...

Bu adam son olaraq şəhidlər verdiyimizə görə ittihamlar yağışına start verib. Bir şəhidimiz olsaydı belə, bu bizim ürəyimizi sızladacaqdı. Hər birimiz şəhid olan qardaşlarımıza görə çox üzülürük. Ancaq ortada bir reallıq var; əsgərlərimizi hakimiyyət şəhid etməyib! Qardaşlarımız torpaqlarımızın müdafiəsində durarkən mənfur erməni gülləsinə tuş gəliblər. Bütün nifrətimizi erməniyə yönəltməliyik, dövlətimizə yox!

Təsəvvür edin, 4 günlük müharibədə bu adam belə oyunlar çıxardı. İndi təsəvvür edin ki, biz böyük savaşa başlamışıq, aylardır müharibə gedir. Adam hiyləgər siyasəti ilə hansı oyunbazlıqlardan çıxar?! Məhz buna görə də bu adamı gerçəkdən ölkədən rədd eləmək, yaxud təcrid eləmək lazımdır.

Bəzi dostlar yarızarafat, yarıgerçək deyirlər ki, bu adamın pasportu yoxdur, ölkədən necə çıxarılsın? Yarızarafat, yarıgerçək də cavab verirəm: Bunun çox sadə bir yolu var; pasportsuz-zadsız Bakı Hava Limanından bunu "AZAL"ın təyyarəsinə mindirirsən, hətta yük yerinə də qoymaq olar, aparıb bir Avropa ölkəsində açıb buraxırsan. Vəssalam.

# Gül bayramının formatı dəyişdi

## Bakı sakinləri bayramın ləğvini yerində olan addım hesab edir: "Pulu gülə deyil, gülləyə xərcləmək lazımdır"

**Bakıda hər il mərhum prezident Heydər Əliyevin doğum günündə keçirilən Gül bayramı bu il fərqli formatda təşkil olunacaq. Musavat.com-un məlumatına görə, hər il Gül bayramının keçirildiyi Heydər Əliyev Sarayının qarşısında olan parkda quraşdırılan çadırlar və müxtəlif qurğular artıq sökülüb.**



Mətbuatda yayılan məlumatlara görə, Gül bayramı ölkə başçısının göstərişi ilə ləğv edilib. Səbəb isə şəhidlərimizin 40 mərasiminin 10 may tarixinə təsadüf etməsidir.

Bakı sakinləri də bu qərarı alqışlayıb, şəhidlərimizin ruhuna ehtiram olaraq Gül bayramının keçirilməməsinin tərəfində olduqlarını bildiriblər.

**Sakin Yusif Yusifov bildirdi ki, Azərbaycan ordusunun düşmənə vurduğu zərbə onu çox sevindirib:** "Ancaq şəhidlərimizin də olması məni bir o qədər üzdü. İndi pulu gülə deyil, gülləyə xərcləmək lazımdır. Həmin oğlanlar bizim üçün canlarından keçiblər. Onların hər biri bizim fəxrimizdir. Ona görə də hesab edirəm ki, bayramın keçirilməsinin ləğvi yerində olan addımdır".

**Sakin Elmar Bəkirov da bildirdi ki, hazırda analarımızın gözü yaşlıdır:** "Şəhidlərimizin anası hər birimizin anasıdır. Onlar da bizim qardaşımızdır. Bu gün hamımızın qardaşları şəhid olub. Hər birimizin anamızın gözü yaşlıdır. Ona görə də bu il şadlanmaq, bayram etmək doğru olmaz. Çox yaxşı haldır ki, ölkə başçısı bu il Gül bayramının keçirilməsini təxirə saldı".



**Digər Bakı sakini Rəsul isə söylədi ki, torpaqlarımız tam işğaldan azad olunmasa, bizə bayram etmək yaraşmaz:** "Azərbaycan ordusuna imkan versələr bütün torpaqlarımızı işğaldan azad edər. Ancaq ermənilərə yardım edənlər çoxdur. Dünya haqqın tərəfində deyil. Haqqın tərəfində olarsa bu qədər gənclərimiz, vətənimizin övladları haqqı olan torpağa vaxtsız köçməz. Bu torpaqlar bizimdir. Ermənilər bunu anlamalıdırlar və özlərinə aid olan əraziyə çəkilmədilər. Şəhidlərimiz olduğu zaman Gül bayramı etmək bizə yaraşmaz..."

Onu da qeyd edək ki, bu ildən başlayaraq mayın 10-da Bakı şəhərinin bütün park, bağ və xiyabanlarında yaşıllaşdırma işləri və güləkmə mərasimi, abadlaşdırma iməcilikləri təşkil olunacaq.

**Bakı Şəhər İcra Hakimiyyətindən APA-ya verilən məlumata görə, şəhərin rayonlarının geniş ictimaiyyətinin və icra hakimiyyəti strukturlarının iştirak edəcəyi əmək və gül bayramında hər rayon özünəməxsus formada abadlaşdırma və güləkmə işləri aparacaq:** "Builki Gül bayramı təkcə bir park çərçivəsində gül-çiçəklərin, çələnglərin, dekorativ bitkilərin müxtəlif dizaynla təqdimatı ilə deyil, ictimaiyyətin, ayrı-ayrı təşkilatların, sıravi vətəndaşların geniş iştirakı ilə şəhərin bütün parklarında keçiriləcək və insanlar sərbəst şəkildə öz bacarıqlarını nümayiş etdirmək imkanına malik olacaqlar".

**Əli RAİS**
**Fotolar müəllifindir**

# Bakıda MTK "terroru" - minlərlə vətəndaş çarəsiz qalıb

## Ceyhun Yusifov: "İllərdir ki, tikinti şirkətləri Azərbaycan vətəndaşlarını kütləvi şəkildə aldadır"

**Azərbaycanda Mənzil Tikinti Kooperativləri(MTK) səlahiyyətlilərinin əməllərindən ziyan çəkmiş bir ordu formalaşıb. Adamlar mənzil almaq ümidi ilə illərlə topladıqları pulları MTK-lara verib, əvəzində müqavilə alıblar. Özləri də bilmədən verdikləri pulun qarşılığında aldıqları mənzil deyil, mənzil veriləcəyi haqda müqavilə şəklinə salınmış vəd olub. Həmin müqavilələrdə binaların tikilib təhvil veriləcəyi haqda tarixlər dəfələrlə dəyişib, aylıq ödənişə aid rəqəmlər bir neçə dəfə artıb, amma vətəndaşın mənzil almaq arzusu reallığa çevrilməyib!**



Bu gün Bakı Şəhər İcra Hakimiyyətinə, Prezident Administrasiyasına, Baş Prokurorluğa və digər dövlət orqanlarına müraciət edən yüzlərlə vətəndaş həmin ünvanlardan da əliboş geri dönür. Əvvəlki illərdən fərqli olaraq dövlət qurumları bu problemə həssaslıqla yanaşmırlar. Odur ki, MTK terroru daha kəskin şəkil almaqdadır.

Vətəndaşlar faktiki olaraq MTK rəsmiləri ilə üz-üzə qalıblar. Ara-sıra əsəbləri tarıma çəkilmiş MTK payçılarının qan tökməyə qədər gedib çıxan davaları haqda xəbərlər də yayılır. Yaranmış durumu "Yeni Müsavat"a şərh edən **tanınmış vəkil Ceyhun Yusifov** deyir ki, hazırkı duruma səbəblər sırasında qanunların tətbiq olunmaması, vahid qeydiyyat sisteminin tətbiq edilməməsidir: "Əgər 10-15 il əvvəl mənzillər bu və ya digər dövlət qurumunda qeydiyyatdan keçirilməklə satışa çıxarılsa idi, hazırda belə bir durum yaşanmazdı. MTK-larla vətəndaş qarşı-qarşıya qalmazdı. Təəssüf ki, bu günün özündə belə dövlət qurumları qabaqlayıcı addımlar atmaq haqda düşünmək belə istəmirlər. Ona görə də MTK-lar dələduzluq yuvasına çevrilib. İllərdir ki, Azərbaycan vətəndaşlarını MTK-lar kütləvi şəkildə aldadır. İnsanlar qəpik-qəpik topladıqları pulu aparıb MTK-ya verir və dələduzluğun qurbanı olur".

**Vəkil deyir ki, bundan əvvəl də belə bir təkliflə çıxış edib ki, mənzillər bir pəncərə sistemi vasitəsilə satışa çıxarılsın:** "Bu sistemin tətbiqi vətəndaşları MTK terrorundan qurtaracaq, dövlət qurumlarına vətəndaşların kütləvi şikayətə getmələri aradan qalxacaq. Vətəndaşların MTK-lara etimadı artacaq. Hazırda vətəndaş başının üstündə dam almaq arzusu ilə dövlət qurumlarının qapısına ayaq döyməkdən əldən düşüb. Belə kütləvi aldadılmaların qarşısını almağın çox sadə yolu var. Bakı Şəhər İcra Hakimiyyətinin Kooperativlər İdarəsi mövcuddur. Hazırda bu qurum formal bir qurumdur, MTK-ların fəaliyyətinə heç bir inzibati-ictimai təsiri mövcud deyil. Bu qurumu işlək hala gətirməklə minlərlə vətəndaşı dələduzların ağuşuna düşməkdən qorumaq olar".

**C.Yusifovun sözlərinə görə, bu halda hər bir MTK fiziki və hüquqi şəxslə alqı-satqı müqaviləsi bağlayarkən mütləq qaydada həmin müqavilələri inzibati üsulla BŞİH-in Kooperativlər İdarəsində reyestri aparılmalıdır:** "Vətəndaş hər hansı bir MTK-dan daşınmaz əmlak alarkən həmin sahənin MTK-nın balansında olub-olmamasını asanlıqla müəyyənləşdirə biləcək. Bundan sonra almaq istədiyi əmlakın dəyəri olan vəsaiti MTK-nın bank hesabına köçürəcək. Bu halda vətəndaşın aldanması sadəcə mümkünsüz olacaq".

**Vəkil deyir ki, bu qədər vətəndaşın hüququnu pozan hallara bir növ seyrçi mövqeyindən baxmaqdansa, müvafiq qurumlar öz vəzifələrinə məsuliyyətlə yanaşmağa məcbur edilməlidir:** "Maraqlı məqamlardan biri də Mülki Məcəllənin normalarının hələ də tətbiq edilməməsi ilə bağlıdır. Qanunda daşınmaz əmlakın əvvəlcədən qeydiyyatı deyilən anlayış var və bu anlayış tətbiq edilmir. Məgər vətəndaşın almaq istədiyi mənzili əvvəlcədən daşınmaz əmlak kimi qeydə almaq olmaz? Əgər həmin normaların tətbiqi vaxtında baş vermiş olsaydı, bu qədər vətəndaş dələduzluğun qurbanı olaraq bu dərəcədə çarəsiz duruma düşməzdi. Bu gün dövlət orqanları ərizə-şikayət axınının altında itib-batmazdı".

**Vəkil deyir ki, bələdiyyələrin mülkiyyətində olan torpaqlarla bağlı da qanundakı boşluqlar son nəticədə vətəndaşın dələduzluqla üz-üzə qalmasına səbəb olur.**

**E.HÜSEYNOV**


SƏS VER!
İşğalçı Ermənistanı bütün dünyada birgə ifşa edək!

Bunun üçün https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe linkinə daxil olun

**Siz bu müraciəti imzalamaqla Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) ABŞ prezidentinə etdiyi müraciətə qoşulur, Azərbaycanın haqq səsini dəstəkləyir, Vətən qarşısında öz borcunuzu vermiş olursunuz.**

**İmzaladığınız müraciətin mətni:**
**Biz Obama Administrasiyasına**
**Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə petisiya ilə müraciət edirik:**

AŞPA-nın 2085 saylı qətnaməsində vurğulanan:
Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi faktını;
Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbini;
Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olduğunu;
Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyini;
ATƏT-in Minsk Qrupunun torpaqlarımızın işğaldan azad edilməsində heç bir nəticə əldə etmədiyini nəzərə alaraq,

**Biz Administrasiyanı AŞPA-nın 2085 saylı qətnaməsini dəstəkləməyə, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım etməyə çağırırıq.**

**Daha sonra:**

- Açılan səhifənin sağ tərəfində "Add your name" adlı yazını görəcəksiniz.
- Qeyd olunan yazının altındakı xanaları doldurun:
  - 1-ci xana – First Name (səs verənin adı);
  - 2-ci xana – Last Name (səs verənin soyadı)
  - 3-cü xana – Email Address (səs verənin elektron poçt ünvanı - email)
  - 4-cü xana – Zip Code (poçt indeksi, misal üçün, AZ1147).
- "Sign now" yazısının üstünə klik edin (tıklayın).
- Dərhal elektron poçtunuzu açın, çünki göstərdiyiniz elektron ünvanınıza (email-a) saytdan imzanızı təsdiqləmək üçün məktub gələcək.
- Gələn məktubda "Confirm....." yazılı linki (keçidi) klik edin (tıklayın).
- Bundan sonra ekranda "Thank you..." cümləsi olan təşəkkür səhifəsi açılacaq. Deməli səsiniz hesablanıb.
- Səsvermə bitdi.

DİQQƏT: Səsvermədə 13 yaşdan yuxarı hər bir kəs iştirak edə bilər.
Bir qurğudan (kompüter, mobil telefon və s.) yalnız bir səs verilə bilər!






# Ermənistanın işğalçılığı ilə bağlı petisiyaya necə səs verək?

## Qaydalar, ardıcıllıqlar hansıdır; cəmi 5 gündə səs verənlərin sayı 70 mini ötüb; müraciətlə bağlı silsilə tədbirlər keçirilir

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) aprelin 6-dan "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya layihəsinin icrasına start verib. Layihə çərçivəsində Ağ Ev Administrasiyasının internet resursunda AVCİYA-nın prezidenti Elxan Süleymanovun imzası ilə Obama Administrasiyasına petisiya ilə müraciət açılıb.**

Müraciətdə Avropa Şurası Parlament Assambleyasının 2085 (2016) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır. Həmçinin Administrasiyaya AŞ PA-nın 2085 (2016) saylı qətnaməsini dəstəkləməsi, Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım olunması üçün çağırış edilir.

Qaydalara görə, petisiyaya cavab verilməsi üçün bir ay ərzində müraciəti ən azı 100 min nəfərin (elektron) imzalaması lazımdır. Petisiyanı 13 yaşdan yuxarı şəxslər imzalaya bilərlər.

AVCİYA bütün dünya azərbaycanlılarının, eləcə də türk dünyasının bu petisiya barədə məlumatlandırılması məqsədilə geniş təbliğat kampaniyasına başlayıb. Kampaniya çərçivəsində ay ərzində çoxsaylı aksiya və görüşlərin keçirilməsi, məlumatlandırıcı materialların paylanılması və s. bu kimi fəaliyyətlərin icra edilməsi planlaşdırılır.

Petisiyanı imzalamaq üçün https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe ttps://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe linkinə daxil olmaq lazımdır.

Daha sonra sağda yerləşən boşluqlara ardıcıl olaraq öncə ad, soyad, e-mail adres, sonda isə poçt indeks kodunu yazıb, "sign now" sözünə tıklanmalıdır.

Petisiyanı imzalamağınızla bağlı sizin qeyd etdiyiniz e-mail adresinizə təsdiqləmə mesajı gələcəkdir. Həmin maili açıb "Confirm your signature by clicking here" yazısına tıklayaraq, səs vermiş olursunuz.

Qeyd edək ki, aprelin 6-da başladılan imza kampaniyasını artıq 70 mindən çox şəxs imzalayıb.

Ağ Evin rəsmi internet saytında yaradılan bu cür petisiya 100 min səs topladığı halda, ABŞ prezidenti Barak Obamanın həmin petisiya ilə bağlı bəyanat yayması gözlənilir.

Petisiya ilə bağlı koordintorlardan biri olan, 1905.az saytının direktoru Fuad Babayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, artıq yığılan səslər 70 minə çatıb. Müsahibimizin sözlərinə görə, cəmiyyətdə bununla bağlı maarifləndirmə də gedib. Hazırda ali təhsil müəssisələrində, bölgələrdə keçirilən tədbirlər buna xidmət edir. Aprelin 11-də isə Dövlət Dillər Universitetinin akt zalında tələbələr üçün tədbir keçirilib və bu barədə məlumat verilib. Bu tədbirlər silsilə xarakter daşıyır və hər gün müxtəlif ali tədris ocaqlarında keçiriləcək.

**Sevinc TELMANQIZI**

# Azərbaycan üçün "5+2" tələsi

## Politoloq: "Əlverişsiz sülhdənsə, münaqişənin daha bir müddət həll olunmamış qalması daha sərfəlidir..."

**Qarabağ cəbhəsindəki qısamüddətli hərbi toqquşmaları dayandıran Rusiyanın bundan sonra atacağı addımlar çoxlarını maraqlandırır. Bir sıra analitiklər hesab edir ki, əslində rəsmi Moskva münaqişənin mərhələli həllində israr edir və öncə Dağlıq Qarabağ ətrafındakı 5 rayonun azad olunmasına erməni tərəfini razı salmağa çalışır.**

Professor İlham Rəhimov isə "Yeni Müsavat"a müsahibəsində də demişdi ki, "5+2 formulu" bizim üçün qurulmuş bir "tələ"dir. Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, "5+2 formulu" özlüyündə tələ kimi görünməsə də, tələ bu formulun hansı şərtlər daxilində həyata keçirilməsi məsələsində gizlənə bilər: "Məsələn, ermənilər əvvəlcə qeyd-şərtsiz 5 rayonu qaytarmağa razılıq verərsə, biz Laçın-Kəlbəcər məsələsinə sonrakı mərhələdə baxılmasına və Laçın dəhlizinin tutaq ki, beynəlxalq nəzarətə verilməsi məsələsinin müzakirəsinə razılaşa bilərik. Sonra Dağlıq Qarabağın Azərbaycanın tərkibində hüquqi statusu və yerli ermənilərin təhlükəsizliyinə real təminatların verilməsi müzakirə oluna bilər. Lakin Lavrovun açıqlamalarından belə məlum olur ki, Moskva paket həll variantını təklif edir. Yəni belə çıxır ki, 5+2 formulunun əvəzində Dağlıq Qarabağın statusu və təhlükəsizlik məsələləri ilə bağlı Azərbaycandan çox ciddi güzəştlər qoparmaq istəyirlər. Məsələn, 5 rayona, eləcə də sonrakı mərhələdə geri qaytarılacaq Laçın və Kəlbəcərə Azərbaycan ordusunun daxil olması qadağan edilərək Dağlıq Qarabağın inzibati sərhədləri boyunca qeyri-müəyyən müddətə sülhməramlı qüvvələr yerləşdirilə bilər. Sonra da Madrid prinsiplərində nəzərdə tutulan referendum məsələsi həyata keçirilə bilər. Tələ budur. Buna getmək olmaz!"


Şahin Cəfərli

**Ş.Cəfərlinin sözlərinə görə, 2-5 apreldə cəbhədə baş verənlərin başlıca siyasi nəticəsi odur ki, Qarabağ məsələsi ciddi şəkildə dünyanın gündəminə gəldi və problem aktuallaşdı:** "1994-cü ildə atəşkəs sazişi imzalandıqdan bəri belə bir hal olmamışdı. Qarabağ məsələsi hər zaman dünya gündəminin ən arxa sıralarında qalan lokal bir münaqişə idi. Atəşkəs rejiminə, bəzi xırda pozuntulara baxmayaraq, ümumən riayət olunması böyük gücləri məmnun edən bir durum idi və "donmuş" kimi görünən münaqişənin hər an alovlanma riski o qədər də ciddi qəbul edilmirdi. Lakin 5 apreldən sonra hər kəs şahid oldu ki, atəşkəsə təminat verən hər hansı beynəlxalq mexanizmin olmadığı təmas xəttində hərbi əməliyyatların başlaması üçün kiçik bir qığılcım kifayətdir. Eyni zamanda Qərb dövlətlərinə o da bəlli oldu ki, Dağlıq Qarabağ ixtilafı ilk baxışdan lokal kimi görünsə də, müharibənin alovlanacağı təqdirdə, Rusiyanın Ermənistanın tərəfində, Türkiyənin isə Azərbaycanın tərəfində münaqişəyə müdaxiləsi və beləliklə, iri miqyaslı regional müharibənin baş verməsi ehtimalı da var və bunu ciddiyə almaq lazımdır".

**Proseslərin bundan sonra hansı məcrada davam edəcəyinə gəldikdə, politoloq deyir ki, biz 5 apreldən sonra regionun əsas güc mərkəzi olan Rusiyanın da münaqişənin həllinə marağının bariz şəkildə artığını müşahidə edirik, bu da önəmli yenilikdir:** "Çünki Moskva son vaxtlara qədər ixtilafın "donmuş" halda qalmasında maraqlı görünürdü. Rusiyanın yeni yanaşması bir neçə səbəblə əlaqədardır. Əvvəla, Moskva problemin həlli üzrə Minsk prosesinin iflasa uğramasını istəmir. Ona görə ki, sülh prosesinin hazırkı formatı Rusiyanın bu məsələdə dominant rolunu təmin edir. Üç həmsədr əslində formal olaraq eyni hüquqludur, əslində isə Vaşinqton və Parisin də razılığı ilə həll prosesi Moskvanın inhisarında qalır. Minsk prosesinin iflasla nəticələnməsi durumunda Moskva əlindəki bu önəmli siyasi alətdən məhrum olacaq və digər regional və beynəlxalq oyunçuların, xüsusən Türkiyənin bölgəyə müdaxilə və münaqişənin həllinə təsir imkanları artacaq. Rusiya rəhbərliyinin və mediasının son hadisələrdən sonra Türkiyəyə ünvanlanmış tənqidlərini, baş nazir Dmitri Medvedyevin Azərbaycan-Türkiyə qardaşlığını çox gözəl bildiyi halda, Ankaranı Bakının mövqeyini dəstəkləməkdə ittiham etmək kimi ilk baxışdan məntiqsiz görünən davranışını bu kontekstdən dəyərləndirmək lazımdır".

**Ş.Cəfərli Moskvanın son vaxtlar Azərbaycan-Türkiyə münasibətlərinin xüsusən hərbi sahədə aşkar şəkildə dərinləşməsindən narahatlıq duymağa başladığını da düşünür:** "Azərbaycan-Türkiyə hərbi müttəfiqliyinin potensialı genişdir və bu potensialın yavaş-yavaş reallaşması Rusiyanın regional maraqlarına təhdid yaradır. Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində hər iki ordunun bərabər hərəkət etmək imkanlarının və koordinasiyasının sınaqdan keçirilməsi ciddi hadisədir. Moskvanın heç bir təminatı yoxdur ki, günün birində bu koordinasiya və bərabərlik Qarabağ cəbhəsində tətbiq olunmayacaq. İkincisi, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığında Rusiya üçün əlverişli olmayan daha bir perspektiv var ki, bu da Azərbaycanda daimi əsasda Türkiyə hərbi bazasının yaradılması ehtimalından ibarətdir. Bu perspektiv reallaşarsa, Azərbaycan öz təhlükəsizliyinə önəmli təminat qazanmış olacaq, nəticədə ölkəmiz Rusiyanın təsir dairəsindən uzaqlaşaq. Gürcüstanda sonra Azərbaycanın da Rusiyanın təsir dairəsindən çıxması və bölgədə Türkiyənin ağırlığının artması şimal qonşumuzun Cənubi Qafqazdakı mövqelərinə sarsıdıcı zərbə vurmuş olar. Bu səbəblə, Rusiya hazırda münaqişənin həllində maraqlı görünür. İranın da bu məsələyə baxışı Rusiyanın maraqları ilə üst-üstə düşür. Lakin bu maraq hələ münaqişənin Azərbaycanın maraqlarına uyğun həlli mənasına gəlmir. Rusiya Qarabağla bağlı elə bir plan reallaşdırmaq istəyəcək ki, münaqişə həll olunduqdan sonra da Azərbaycan və Ermənistanı öz təsir dairəsində saxlaya bilsin və əlində Azərbaycana qarşı daimi basqı aləti qalsın. Azərbaycan rəhbərliyi danışıqlarda çox ayıq və ehtiyatlı olmalıdır. Əgər Rusiyanın təklifləri bizim gözləntilərimizə cavab vermirsə, münaqişənin daha bir müddət həll olunmamış qalması bizim üçün daha sərfəli variantdır, nəinki əlverişsiz sülh planını qəbul etmək".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# "...Bu, qələbə müharibəsidir" - tanınmış ekspertdən sensasion açıqlamalar

## Mehman Əliyev: "Bu müharibənin özündə beynəlxalq güclər maraqlı idi; məqsəd həm də o idi ki, Azərbaycan ordusu öz torpaqlarını azad etməyə qadir olduğunu nümayiş etdirsin"; Ermənilərdə ruslara qarşı daha böyük nifrət var, nəinki bizdə..."

**Cəbhə xəttində ermənilərin təxribatları nəticəsində atəşkəsin pozulması və 4 günlük müharibə ölkədə və regionda yeni proseslərin başlanğıcına çevrildi. Bunun Azərbaycan üçün gələcəkdəki nəticələri də ciddi müzakirə mövzusudur. "Turan" agentliyinin direktoru, tanınmış şərhçi Mehman Əliyevlə söhbətimizdə son günlərin aktual mövzusunu müzakirə etdik.**

***- Mehman bəy, 4 gün davam edən müharibə və onun nəticələri... İlkin rəyləriniz nədir? Nə qazandıq? İtkilərimiz qazanclarımızı ötdümü?***

- Bu müharibənin özündə beynəlxalq güclər maraqlı idi. Minsk Qrupu həmsədrlərindən danışırıqsa, onların verdiyi reaksiya göstərdi ki, onlar bu nəticələrin olmasında maraqlı idilər. Biz görürük ki, Yaxın Şərq proseslərinə bağlıyıq. Regionda hərbi əməliyyatlar sona çatmaqdadır. Biz Suriyada, İraqdakı durumu görürük. Yaxın gələcəkdə regionda yenidən qurulma prosesləri başlayır. Bütün bu dövlətlərin orda iqtisadi və başqa maraqları var. Onlar reallaşmağa başlayacaq. Ona görə də bu mənada Qarabağ konfliktinin tezliklə çözülməsi də gündəmə gəlir. Burada ən böyük problem də ondan ibarətdir ki, erməni tərəfdə olan qalibçilik sindromu onlara düzgün, adekvat qərar verməkdə mane olur. Bu da konfliktin həlli istiqamətində çox ciddi problemə səbəb olur. Azərbaycan tərəfi bu danışıqlar prosesində güzəştə gedir. Onlara Azərbaycanın tərkibində muxtariyyət verir, bizim sərhədlər daxilində öz müqəddəratlarını həll etmə imkanı yaradılır. Bu, əslində kompromisdir. Amma onlar maksimalist mövqedə idilər ki, biz heç bir güzəştə getməyəcəyik. "Ətraf rayonları veririk, amma biz müstəqil olmalıyıq" - onların kompromisi bundan ibarətdir. Bu da heç kəsi qane etmir. Ona görə də onları konstruktiv mövqeyə gətirmək üçün həmin bu əməliyyatın keçirilməsinə onlar etiraz etmədilər.

***- Bu nəyə gətirəcək, sizcə?***

- Bu, o deməkdir ki, yaxın gələcəkdə erməni tərəfi yenə müqavimət göstərməyə başlasa, kompromislərə getməsə, proses təkrar olunacaq. Erməni tərəfi üçün də daha pis nəticələr verəcək.

***- Atəşkəs nəyin müqabilində dayandı, sizcə?***

- Məqsəd bundan ibarət idi ki, erməni tərəfə Azərbaycanın gücü olduğu göstərilsin. Azərbaycan tərəf vaxtilə səslənən "biz torpaqlarımızı geri alacağıq" tipli bəyanatların arxasında real güc və imkanlar olduğunu göstərsin. Sadəcə, erməni tərəfinə mesaj idi ki, gəlin prosesi sülh yolu ilə yekunlaşdıraq. Atəşkəsin yenidən işə düşməsindən sonra İlham Əliyevin bəyanatlarında da bu məqam səsləndi ki, biz ermənləri bu yoldan çəkinməyə çağırırıq. Əsas məqsəd həm də o idi ki, Azərbaycan ordusunun öz torpaqlarını azad etməyə qadir olduğunu nümayiş etdirsin, bu mənada böyük dövlətlərin dəstəyini də alır.

***- Dəstək demişkən, Azərbaycana verilən hərbi və siyasi dəstəklər yetərincə oldumu, sizcə?***

- Əgər bəlli güclər bu işə qarışmayıblarsa, bu, həm də dəstəkdir. Onlar formal olaraq bəyanatlar verdilər, çağırışlar etdilər. Amma 3 gün ərzində ciddi müdaxilə olmamışdı. 3 gündən sonra isə müdaxilə ancaq o səviyyədə oldu ki, Rusiya işə salındı, atəşkəs bərpa olundu.

***- Bu məsələdə Rusiyanın tutduğu mövqe, Putinin bu günlər ərzindəki susqunluğu hansı siyasi manevrin göstəricisi idi?***

- Sakitlik hər üç tərəfin mövqeyində hiss olunurdu - Amerika, Avropa Birliyi və Rusiya. Bu, birbaşa onunla bağlı idi ki, onlar maraqlı idi Azərbaycan bu gücü nümayiş etdirsin. Düzdür, bu üç dövlətdən heç biri bunu etiraf etməz. Amma mən mənzərəni belə görürəm.

***- Sergey Lavrovun açıqlamalarında razılaşmanın müəyyən komponentlərinin dəqiqləşməsi ilə bağlı nüanslar var. Sizcə, nədən ibarət olacaq o razılaşma?***

- Məncə, orda erməni tərəfi üçün vəziyyət daha da pisləşir. O mənada ki, orda vaxtilə böyük problem vardı - torpaqların boşaldılması, müəyyən müddətdən sonra ermənilərin bununla bağlı referendum keçirməsi. Bizimkilər isə buna razı deyildi. Bunu isə ümid paket kimi qəbul etmək idi. Yəni o deməkdir ki, sabah erməni tərəfi formal referendum keçirməklə yenə də öz müstəqilliyini elan edə bilər. Ona görə də bu, yolverilməzdir. Sadəcə olaraq, bu prosesdə prinsipial məsələ budur ki, referendumun keçirilməsi əvvəlki qaydada olmayacaq. Onun keçirilməsi yaxın zamanlara şamil olunmayacaq. Uzunmüddətli qalır. Orda da daha çox Azərbaycan icmasının mövqeyi, rəyi nəzərə alınacaq. Bu məsələdə ermənilərə öz məqsədlərinə nail olmaq üçün verilən imkanlar azalacaq. Mən hesab edirəm, tərəflər maraqlı deyil ki, yaxın zamanlarda, hətta sülh bağlanandan, işğalçılar torpaqdan çıxandan sonra ermənilər Azərbaycanın tərkibindən çıxmaq haqqında qərar versinlər. Bu mənada bu qərarda tərəflər maraqlı deyil. Onlar maraqlıdılar ki, regionda Azərbaycanla Ermənistan arasında gələcəkdə əməkdaşlıq başlasın. Bu da gələcək stabillik üçün bir zamin olsun.

***- Susqun tərəflərdən danışdız bayaq. Bunlardan biri də ABŞ oldu. Amerika Ermənistana niyə bu qədər loyal davranır? Rusiyameyllı Ermənistanı dəstəkləməsinin arxasında, kökündə nə dayanır?***

- Ermənistan Rusiyadan uzaqlaşmaq istəyir. Biz görmüşdük ki, 2014-cü ildə Ermənistan Avropa Birliyinin assosiativ üzvlüyü haqda saziş imzalamağa hazırlaşırdı. Bunun qabağı o zaman alındı. Ermənistan tərəfi Rusiyadan uzaqlaşıb, Amerikaya tərəf yaxınlaşmağa can atır. Bununla belə, Rusiya faktorunu nəzərə alır. Bilirlər ki, onlar radikal və ya artıq hərəkət eləsələr, Qarabağ nöqteyi-nəzərdən onları cəzalandıracaqlar. Hələ mən demirəm ki, iqtisadi, təhlükəsizlik baxımından Rusiyadan asılıdılar. Bu baxımdan onlar Rusiyanı sevmir, sadəcə, ehtiyat edirlər. Ermənilərdə ruslara qarşı daha böyük nifrət var, nəinki bizdə. Baxmayaraq ki, ruslar bizə xeyli problemlər gətirmişdilər. Ona görə də erməni cəmiyyətində ruslara tamam başqa münasibət var. Bunu fransızlar da bilir, amerikalılar da, bütün dünya da. Bunun nəticəsidir ki, ruslarla ermənilər arasında hər hansı kiçik gərginlik olanda bu, cəmiyyətdə antirus əhvalının necə güclü olduğunu göstərir. Ermənistanda rus məktəblərinin hamısını bağlayıblar. Rus dilində nə məktəb, nə universitet var. Amma Azərbaycanda belə təhsil müəssisələri var. Onda biz ermənilərdəki hansı rus sevgisindən danışırıq? Yoxdur belə sevgi. Sadəcə, ermənilər ruslardan istehlakçı kimi istifadə edirlər. Rusiyanın iqtisadi imkanlarından, spekulyasiyalarından istifadə edirlər. Onlar bunu başa düşməsələr də, ruslar sübut etdi ki, zaman dəyişir və maraqlar hər şeydən üstündür. Və bu gün regionda ermənilərlə rusların maraqları da heç eyni deyil. Ruslar üçün bu gün Yaxın Şərqə çıxış ən böyük prioritetlərdən sayılır.



***- Yerli ictimaiyyətin və medianın bu məsələdə mövqeyi, davranışı barədə nə demək olar? Adekvat oldumu?***

- Mediaya ciddi iradlar da bildirilməmişdi. Media özünü bu dəfə daha çox çərçivədə apara bildi. Təbii ki, keçən ilin 27 avqustunda baş tutan iclasın təsiri olub. Hesab edirəm ki, dövlət orqanlarının bu məsələdə işləri yaxşı təşkil olunmamışdı. Sonradan daha çox vətənpərvərlik ruhunun yüksəldilməsinə yüklənmişdi. Amma savaşın gedişi və onun təqdimatı daha düzgün təqdim oluna bilərdi. Dəqiq informasiyalar əvvəldən zəif idi. Daha çox ordan-burdan gələn, dolayısı ilə gələn xəbərlər çox idi. Bu da bir qədər inamsızlığı azaldırdı. O mənada ki, hərbi əməliyyatlarla informasiya təminatı arasında müəyyən boşluqlar var idi. Bu, çox vacib idi. Bilirsiz, bir var hərbi əməliyyat. Hərbi əməliyyatın siyasi tərəfləri var. Çünki siyasi bəyanatlar verilir, xarici işlər naziri, prezident danışır. Bu, siyasi dəstəkdir. Bir də var informasiya dəstəyi. Beynəlxalq aləmdə belədir - xəbəri birinci kim verirsə, onun informasiyaları beynəlxalq cəmiyyətdə daha çox yer tutur. Sən, sadəcə olaraq, onu təkzib etməklə məşğul olmalı olursan.

***- Şəhidlərimizin sayı ilə bağlı rəqəmlərdə də bir qədər qeyri-dəqiqlik oldu...***

- Hər iki tərəf bunu edirdi - itkilərin azaldılması, azmış kimi təqdim edilməsi. Bunun da iki səbəbi vardı. Bir tərəfdən, bu, cəmiyyətdə müəyyən şok yarada bilərdi. İkinci tərəfdən isə qarşı tərəfdə sevinc yaranacaqdı ki, biz filan qədər azərbaycanlı zabiti öldürmüşük.

***- Bəs şəhid sayı artdıqca cəmiyyətin əhvalı necə dəyişir?***

- Cəmiyyətdə artıq belə bir baxış oturuşub ki, bu, qələbə müharibəsidir. Ona görə də müharibədə şəhidlərin olması da qəbuledilən sayılır. İndi o başqa məsələdir ki, hansı şəraitdə o əsgərlər həlak olub. Olmalı idimi, hansı şəraitdə həlak olublar? Açığı, biz bu detalların heç birini bilmirik.

***- Əfv fərmanından sonra əksər siyasi məhbusların azadlığa çıxması cəmiyyətdə də bir loyallıq yaradıb. Amma əsas qorxu hakimiyyətin yeni repressiya dalğasına start verəcəyidir. Sizin proqnozlar necədir? Bunun işartıları görünməyə başlayıbmı, sizcə?***

- Mən, açığı, hakimiyyətin repressiyalara başlamasına inanmıram. Çünki daha o dövr deyil. Biz indi başqa bir dövlətdə yaşayırıq. Prezidentin sonuncu iclasdakı çıxışları göstərdi ki, o, artıq rəqəmlər səsləndirmədi. Əvvəllər ümumdaxili məhsul, qızıl ehtiyatları və sair. Bu barədə danışmırlar. Heç xarici borclar haqda da heç nə danışmırlar. Çünki vəziyyət xeyli çətindir. Qərb tərəfdən də təpkilər var. Bir tərəfdən də dəstək var. Qarabağ məsələsində bunu gördük. Amma eyni zamanda onun tezləşdirilməsi üçün təpki də var. Azərbaycan hakimiyyəti vaxtilə medianı, siyasi partiyaları və vətəndaş cəmiyyətini ona görə susdurub ki, zamanında guya bu qüvvələrin məxməri inqilab edəcəyindən ehtiyatlanıb. Məqsəd baş verə biləcək hansısa dəyişikiyin qarşısını almaq idi. Əslində nə baş verdi? Sistem çökdü, neft, bank, təhlükəsizlik sistemi sıradan çıxdı. Bunu nə media, nə QHT, nə partiyalar elədi. Hakimiyyət düşməni düzgün istiqamətdə axtarmadı. Bu gün yenidən 5 nəfəri, 10 nəfəri və ya 15 nəfəri tutmaqla nə olacaq? Nə mənası var axı bunun? Bu, məgər vəziyyəti düzəldəcəkmi? Əksinə, həmin iqtisadçıları, siyasətçiləri, jurnalistləri işə cəlb etmək lazımdır ki, dövləti bu vəziyyətdən çıxarsınlar.

***- Təzyiq demiş, sizin contact.az saytı da fəaliyyətini dayandırıb, deyəsən. Sayta daxil olmaq mümkün deyil.***

- Müharibə günlərində bizim sayta da güclü hücumlar oldu. Sadəcə, saytı açmaq üçün www.contact.az yazmaq lazımdır. Ayın 3-4-də güclü hücum oldu. Düzdür, saytı dağıda bilmədilər. Çünki kifayət qədər qorunur.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# Rusiya Suriyaya qayıdır - Türkiyə ilə toqquşma təhlükəsi

## Moskva Hələbi azad etməyə hazırlaşır; Qabil Hüseynli: "Türkiyə ilə münasibətlərdə gərginliyin yeni səhifəsi açılır"



**Rusiya Hərbi Hava Qüvvələri ilə Suriya hərbiçiləri Hələbin azad edilməsi üçün birgə əməliyyatlara hazırlaşır. Bunu rusiyalı parlamentarilərlə görüşdə Suriyanın baş naziri Vail əl-Halki bəyan edib. O, Suriya ordusunun Rusiya HHQ-nin dəstəyi ilə apardığı əməliyyatlar nəticəsində sahədə vəziyyətin Suriya ordusunun lehinə dəyişdiyini vurğulayıb.**

Rusiya-Suriya yaxınlaşması bu ilin fevralında əldə olunan atəşkəs qərarına ciddi kölgə salıb. Ekspertlər hesab edirlər ki, Hələb uğrunda başlanan növbəti mübarizə dünya düzənini yenidən pozacaq, son aylarda davam edən nisbi sakitliyə "Stop" deyiləcək. Proseslərin ona doğru getdiyi açıq şəkildə görünür. Türkiyənin də bu proseslərə qoşulacağı istisna edilmir. Çünki qardaş ölkənin qonşuluğunda yerləşən şəhərdə hərbi əməliyyatların aparılması ilə razılaşacağı inandırıcı görünmür - Hələb isə Ankara üçün Suriyada strateji əhəmiyyətli üç məntəqədən biridir.

**Politoloq Qabil Hüseynli Rusiyanın apardığı siyasətdən əl çəkmədiyini söylədi:** "İlk razılıq ABŞ və Rusiya arasında olmuşdu. Atəşkəsin əldə olunması da hər iki dövlət tərəfindən razılaşdırılmışdı. İndi Rusiya birtərəfli qaydada atəşkəsi pozur. Hələb Suriya Azadlıq Ordusunun qərargahı yerləşən bölgədir. Eyni zamanda Türkiyənin maraqlarına toxunan və Türkiyədən humanitar yardım daşınan yolun üzərində yerləşir. Hələb həm türkmənlərin, həm də Kərkük türklərinin daha çox yaşadığı şəhərdir. Bizim böyük Nəsiminin məzarı da orada yerləşir. Zənnimcə, Hələbə hücum Rusiya-Türkiyə münasibətlərinin yenidən gərginləşməsinə səbəb ola bilər. Çünki Hələb və digər ərazilər Türkiyənin strateji maraqlarının olduğu ərazilərdir. Rusiya uzaq yerdən gəlib bu bölgədə aranı qarışdırmaqla məşğuldur. Necə ki, Dağlıq Qarabağda aranı qarışdırdı, indi də Suriyada. Burada təkcə atəşkəs pozulmur. Eyni zamanda Türkiyə ilə münasibətlərdə gərginliyin yeni səhifəsi açılır. Rusiyanın bu addımı bölgədə münasibətləri daha da gərginləşdirəcək və atəşkəs rejimini alt-üst edəcək, irimiqyaslı hərbi əməliyyatların başlanmasına rəvac verəcək. Türkiyənin burnunun ucunda belə əməliyyatlar başlayacaqsa, qardaş ölkə müxtəlif diplomatik addımlara və hərbi-siyasi gedişlərə gedə bilər. BMT-yə müraciət qaçılmazdır. Çox mürəkkəb situasiya yaranıb. Açığı, Türkiyə Rusiya ilə qarşı-qarşıya gəlmək istəmir. Rusiya sanki qəsdən Türkiyəni Suriya probleminə cəlb etmək, onunla döyüşmək istəyir. İndiki şəraitdə Rusiya kürd qruplaşmalarını qızışdıraraq, Türkiyənin üzərinə göndərir. Bu baxımdan Türkiyənin indiki mərhələdə diplomatik gedişlərə üstünlük verəcəyi qənaətindəyəm. Eyni zamanda Türkiyə Suriya Azadlıq Ordusu və digər bu kimi qüvvələrin silah-sursatla təchizatını artıracaq. Bura elə bir bölgədir ki, hər addımda Türkiyənin maraqları var. Belə bir şəraitdə qardaş ölkə proseslərə biganə qala bilməz".

**Politoloq Rusiyanın yenidən Suriya məsələsinə qayıtmasına, atəşkəsi pozmasına da münasibət bildirdi:** "Moskva qaşınmayan yerdən qan çıxarmaq istəyir. Rusiya müharibə ilə yaşayır. Yenə ön sırada Putinin reytinq məsələsi dayanır. Burada Əsəd rejiminin saxlanılması ideyası da var. Həmçinin Qərb dövlətlərinə əzələ nümayişi proseslərin kökündə dayanır. Bir sözlə, Rusiya normal hərəkət etmir ki, onu məntiqlə çözəsən. Anormal hərəkət edirlər və bu, dünyaya meydan oxumaqdan başqa bir anlama gəlmir. ABŞ və Qərb dövlətlərinin bu proseslərdə seyrçi qalacaqlarına inanmıram. Çünki İŞİD problemi ortada qalıb və terrorçu qruplaşma yeni-yeni ərazilər ələ keçirir. Rusiya prosesləri bu gedişata çevirməklə, Türkiyə və Avropa dövlətlərinə yeni-yeni miqrant axını təşkil etmək istəyir. Bu da Qərb dünyasını ciddi şəkildə narahat edir. Rusiyanın bu hərəkətləri cavabsız qalmayacaq. Müxtəlif yollarla Rusiya yenidən danışıqlar stoluna gətirilə bilər".

**Q.Hüseynli Rusiyanın gedən proseslərdə heç nə qazana bilməyəcəyini də qeyd etdi:** "Rusiyada ölkə dağılıb. Səudiyyə Ərəbistanının iştirakı ilə 30 müsəlman dövlətindən Rusiya əleyhinə təşkil olunmuş 20 minlik qoşun Ərəbistanda hazır vəziyyətdədir. Suriyaya girməyə hazırlaşır. Hesab edirəm ki, Rusiya və Suriyanın son mövqeləri Qərb, Səudiyyə Ərəbistanı və Türkiyə tərəfindən qarşıdurmaların daha da artmasına səbəb olacaq. Ola bilsin ki, Rusiya əleyhinə olan Müsəlman İttifaqı və ABŞ nəzarətində olan koalisiya Suriyada hərbi əməliyyatlara başlasın. Bu, həm Rusiyanın burnunun ovulması, həm də Əsəd rejiminin devrilməsi ilə başa çata bilər".

❑ **Cavanşir ABBASLI**

# Yanlış təhlil, nadürüst təsbit



**Xalid KAZIMLI**

**Belarusda fəaliyyət göstərən "Belsat" telekanalının əməkdaşı Denis Dzyubanın MSDM rəhbəri İsa Qəmbərlə müsahibəsində maraqlı bir məqam vardı. Ümumiyyətlə, müsahibə olduqca maraqlı alınıb, amma sözügedən məqam daha diqqətəlayiqdir.**

Dzyuba İsa Qəmbərdən Azərbaycanın Qarabağ müharibəsini ölkədaxili problemlərdən, ən əsası, maliyyə problemlərindən diqqəti yayındırmaq üçün başladığına dair versiyaya münasibətini soruşub.

**İsa Qəmbər deyib:** "Bu versiyanın ciddi müzakirəyə ehtiyacı olmasını düşünmürəm. Düzdür, bir neçə gün sosial şəbəkələrdə söhbət yalnız Qarabağdakı toqquşmalardan, həlak olanlardan, azad olunmuş ərazilərdən getdi. Bu zaman sosial və iqtisadi problemlər ikinci plana keçdi, amma həll olunmadı. Belə hərbi əməliyyatlar nəticəsində xalqın iqtisadi problemləri unudacağını düşünmək ciddi deyil. Bu problemlər, həmçinin siyasi azadlıqlar problemi çox ciddidir, qalmaqda davam edir və biz, Azərbaycanın demokratik cəmiyyəti bu istiqamətdə iş aparırıq".

Bu, bir siyasətçinin realist düşüncəsinin göstəricisidir. Onu göstərir ki, İsa Qəmbər hissə qapılmadan, ələ düşmüş fürsətdən öz siyasi rəqibinə zərbə vurmağa çalışmadan mühakimə yürüdə, obyektivliyini qoruyub saxlaya bilir.

Azərbaycanın siyasi arenasının başlıca problemlərindən biri də odur ki, bunu hər adam bacarmır, daha dəqiqi, az-az siyasətçi obyektivliyini sonadək qoruyub saxlamağı bacarır.

Son 25 ildə az informasiya əsasında uzaq gedən nəticələr çıxarmaq, yanlış təhlillər aparmaq, qeyri-dəqiq qənaətlərə gəlmək, bir neçə gün sonra baş verə biləcək hadisələri düzgün proqnozlaşdıra bilməmək mərəzi o qədər şiddətli və yayğın olub ki, bu, siyasi uğura gedən yolları həmişə qapayıb.

Baş verənləri düzgün qiymətləndirmək lazımdır. Ermənistanla biz, ən son tarixi götürsək, 28-ci ildir ki, müharibə vəziyyətindəyik. Bir gün Azərbaycan uzun-uzadı və mənasız danışıqlar prosesinə ara verib, ermənilərə öz qəzəbini göstərməliydi. Bu, cari ilin aprel ayının 2-ə təsadüf etdi. Prinsipcə, həmin döyüş fevral (ya da mart, hətta may) ayında da baş versəydi, bunu da hansısa daxili problemlərdən (neftin qiymətinin düşməsi, devalvasiya, ictimai narazılıqlar və s.) diqqət yayındırma cəhdi ilə əlaqələndirmək olardı.

Bu baxımdan Qarabağ cəbhəsində hərbi əməliyyatların fəal fazaya keçməsini "Panama papers" sənədləri ilə bağlamaq bir neçə səbəbdən yanlışdır.

**Birincisi,** o sənədlərdə deyilənlərdən daha artığını vaxtilə jurnalist Xədicə İsmayıl yazıb. Burada Azərbaycan ictimaiyyəti üçün fövqəladə dərəcədə yeni bir şey yoxdur.

**İkincisi,** mövcud iqtidar o cür açıqlamalara görə həyəcanlanmaq mərhələsini çoxdan geridə qoyub və bilir ki, əvvəllər olduğu kimi, ictimaiyyətin reaksiyası yenə də 0-ın üstündə olacaq.

**Üçüncüsü,** müharibənin tez-tələsik başlanmayacağı təqdirdə heç də xalq sırf "Panama papers" sənədlərinə görə ayağa qalxmayacaq, hakimiyyətdən hesab sormayacaqdı. Bunun əksini düşünmək sadəlövhlükdür. Çünki Azərbaycan ictimaiyyəti çoxdandır ki, korrupsiyaya normal bir şey, hətta norma kimi baxır, hesab edir ki, bal tutanın arada barmaq yalaması məqbuldur.

Baxın, Qarabağ cəbhəsində atəşkəsdir, 10-15 gündən sonra hərbi ehtiraslar tamamilə səngiyəcək, yenə də gündəmdə başqa mövzular olacaq, hətta ola bilər ki, "Panama papers" söhbəti pik həddə qədər qızışacaq, ancaq xalq kütlələri hərəkətə gəlməyəcək.

Belə hadisələrin iqtidar komandalarının taleyinə təsiri İslandiya, Avstriya, Hollandiya, İsveç, Norveç kimi ölkələrdə ola bilər. Məhz o ölkələrdə korrupsiya qalmaqalları hakimiyyətdə olan siyasi qüvvənin taleyinə təsir edir: kimsə özü istefa verir, dirəşənləri isə zorla istefaya göndərirlər.

Belə hadisələrin Rusiya, Türkiyə, Belarus, Azərbaycan, Ermənistan kimi ölkələrə qətiyyən isti-soyuğu yoxdur. Bu, təcrübədə dəfələrlə təsdiqlənib.

Ona görə də Azərbaycan hərbçilərinin son 22 ildə ilk dəfə göstərdiyi şücaətə, rəşadətə kölgə düşürmək düzgün deyil. Bu, şəhidlərimizin xatirəsinə hörmətsizlikdir. Üstəlik, onların "heç nə üstündə qurban getdikləri"ni təkrar-təkrar, dönə-dönə vurğulamaq şəhidlərin əzizlərini ölümcül yaralaya bilər. Şəhidlərin hünəri və nailiyyəti onların son təsəllisidir, bilirlər ki, şəhidlər öz ölümləri ilə vətən üçün faydalı olublar. Bunu onlara çox görmək olmaz.

# Bakıda təhlükəsizlik tədbirləri gücləndirilib - terror gözləntisi varmı?

## DİN rəsmisi: "Çox ciddi nəzarət tədbirləri həyata keçirilir"

**Bakıda təhlükəsizlik tədbirləri gücləndirilib. Dəmir yolu vağzalında, aeroportda, metro stansiyalarında, iri ticarət mərkəzlərində, bir sözlə, əhalinin sıx toplaşdığı məkanlarda hüquq-mühafizə orqanları əməkdaşlarının sayı artırılıb. Mühafizə xidmətləri əməkdaşlarının sayıqlığı daha diqqətçəkən olub.**

Metroların girişlərində sərnişinləri əvvəlkitək 1 polis nəfəri deyil, 3 polis xüsusi diqqətlə yoxlayır, ən kiçik ölçülü əl çantaları belə diqqətdən kənarda qalmır. Təhlükəsizlik tədbirlərinin daha yüksək səviyyəyə qaldırılması düşmən Ermənistanla 4 günlük müharibə və sonrakı dönəmə təsadüf edir. Üstəlik, dünyanın bir çox ölkələri - qardaş Türkiyə, Brüssel və Fransadakı terror olayları fonunda bu tədbirlərin həyata keçirilməsi Azərbaycanda terror təhlükəsi gözləntisinin olması qənaəti yaradır.

Ermənistanın 4 günlük müharibədə verdiyi itkilər qarşılığında ölkəmizdə əhalini təşvişdə saxlamaq üçün hər hansı bir aksiyaya əl ata biləcəyi ehtimalı da yüksəkdir.

Bundan başqa, Azərbaycanı sevməyən təkcə ermənilər deyil, onlar kimi Azərbaycanı gözü götürməyən qüvvələr də mövcuddur.

**Hazırkı durumu "Yeni Müsavat"a şərh edən politoloq, sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev** deyir ki, Ermənistanın destruktiv mövqeyi regionu daim gərgin vəziyyətdə saxlayır. 4 günlük müharibədən sonra isə düşmən tərəf daha azğın, aqressiv hala gəlib. Odur ki, Azərbaycan hazırki durumda daha ehtiyatlı davranmalı, mümkün risklərdən yayınmaq, qarşısını almaq üçün tədbirlər görülməlidir və görülür: "Belə bir şəraitdə hüquq-mühafizə orqanları əməkdaşları kimi əhalinin də sayıqlığını artırması vacibdir. Hüquq-mühafizə orqanları əməkdaşlarının yoxlamalarına anlayışla qarşılıq verilməsi isə ümumi işin xeyrinədir. Hüquq-mühafizə orqanlarının fəaliyyətinin qanunlara söykəndiyi diqqətə alınmalıdır. Düşmən ən müxtəlif üsullara, o cümlədən terrora əl ata bilər. Ermənistan xüsusi xidmət orqanları Azərbaycanda ən müxtəlif illərdə qanlı terror olayları törədiblər. Metropolitendə, ictinai nəqliyyatda günahsız insanlarımızın qanını töküblər. Düzdür, hazırda Azərbaycanda təhlükəsizlik tədbirləri həmin illərlə müqayisədə daha yaxşı səviyyədədir, hazırda güclü nəzarət var. Bu çox yaxşı haldır. Amma o demək deyil ki, Azərbaycanda belə hadisələr heç vaxt ola, təkrarlana bilməz. Dünyanın ən böyük xüsusi xidmət, kəşfiyyat orqanına malik ABŞ belə terrordan sığortalanmayıb. 2001-ci il 11 sentyabr hadisələrində ABŞ qanlı terrorla üz-üzə qaldı, 3 min vətəndaşını itirdi. Bu gün Türkiyənin ən çox qorunan şəhərləri Ankara və İstanbul da terrorçuların hücumuna məruz qalır. Mülki insanlar, heç bir günahı olmayan vətəndaşlar qanlı aksiyaların qurbanına çevrilirlər. Bu baxımdan əhalinin diqqətli olması da vacib şərtdir".



Orxan Mansurzadə

**A.Nağıyev deyir ki, nə qədər ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb, bu bizim milli təhlükəsizliyimizə ən böyük təhdiddir:** "Bu baxımdan müəyyən dərəcədə narahatçılıq var və bu narahatçılığın qarşısını almaq üçün istər hüquq-mühafizə orqanları, istər hərbi qüvvələrimiz müvafiq addımlar atır. Əhali ayıq-sayıq olmalıdır".

**Daxili İşlər Nazirliyi mətbuat xidmətin əməkdaşı Orxan Mansurzadə polisin gücləndirilmiş iş rejimində çalışdığını təsdiqləyib. "Yeni Müsavat" əməkdaşının sorğusuna cavab olaraq O.Mansurzadə bildirib ki, bir müddət əvvəl belə bir qərar verilib:** "Polis gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Çox ciddi nəzarət tədbirləri həyata keçirilir".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Polkovnik Orucovun əziz xatirəsinə



Zamin HACI
zaminhaci@gmail.com

**Onun şəklini dəfn günü görəndə tanımadım. Üstündən 17 il keçir, məni qınamayın. Ancaq ürəyimdə bir xal qalmışdı. Bir çox əlamətlər uyğun gəlirdi: "Orucov", "kəşfiyyatçı", "ağdamlı"... Hətta arada qəzetimizin baş direktoru, əslən ağdamlı Ələsgər Süleymanovdan da soruşdum, bəzi məlumatları dəqiqləşdirməsini istədim. İki gün qabaq isə özüm araşdırıb tapdım: həmin insan idi. Düzü, sentimental adam deyiləm, uzun illərin savaş itkilərinə də pis mənada öyrəşmişəm, ancaq onun ölümü məni çox dilxor elədi. Bəlkə şəxsən tanımağıma görə? Nə bilim. Hər halda, bu gün bir neçə cümlə ilə də olsa o gözəl insan qarşısında azacıq borcumdan çıxmaq istəyirəm.**

Son aprel döyüşlərində Tərtər istiqamətində həlak olan polkovnik Raquf Orucovu 1999-cu ildə şəxsən tanımaq şərəfinə yetmişəm. Sumqayıtda dəfn edilən zabitimiz Ağdamın Cinli kəndində doğulmuşdu. Sən demə, 1992-ci ildə düşmənin artilleriya atəşindən anası həlak olubmuş. Bəzi məlumatlara görə, bir qardaşı da o zaman şəhid olub. Yeri gəlmişkən, onun adını da xəbərlərdə müxtəlif şəkildə - Raqub, Raqib, Raquf kimi yazırlar, ancaq dəqiq yazılışı deyilənə görə, Raqufdur. Bunu niyə xüsusi vurğulayıram? Çünki orduda adamın adı əslində çox vaxt yaddan çıxır, orda insanlara əsasən soyadı ilə müraciət edirlər. Bəlkə də rəmzi bir haldır, sanki sənə daima hansısa soyadı, nəsli təmsil elədiyin xatırladılır, gərək o nəslin adını batırmayasan. Orucovla görüşümüzün tarixçəsinə qayıdım.

1998-ci ildə Murovda bəzi əsgərlərimiz alimentar distrofiyadan - aclıq xəstəliyindən ölmüşdülər. Bu haqda ardıcıl araşdırma yazılarımdan qəzəblənən müdafiə naziri Əbiyevin sifarişi ilə birbaşa həmin hərbi hissəyə xidmətə göndərilmişdim. Yəni bir tabordan yazı yazırsan, 3 ay sonra isə orda əsgər olursan - mənim durumumu təsəvvür edin... Ancaq mənim əsgərliyim də daha çox elə müşahidələr aparmaq, gizli gündəliklər yazmaqdan ibarət idi. Gördüyüm nöqsanları, eyni zamanda Azərbaycan əsgərlərinin təsəvvürə gəlməz qəhrəmanlığını dayanmadan qeydə alırdım. Bir dəfə yenə çayın kənarında dəftərçəni yazarkən tanımadığım bir zabit məni tutdu. Deyəsən, kapitan rütbəli, cüssəli bir adam idi, təxminən 26-27 yaşı vardı. Qeydlərimi oxuyanda fikirləşdim ki, vəssalam, işlər fırıqdır, məni qərargaha satacaq, ondan sonra həm cəza alacam, həm yazdıqlarım batacaq, həm də indən belə heç nə yazmağa qoymayacaqlar. Ancaq adam halıma baxıb gülümsündü, dəftərçəni qaytardı və yadımdan çıxmayan o sözləri dedi: **"Məndən qorxma, mən də sənin kimi əsgərəm. Yazdıqların da doğrudur, problemlərimiz çoxdur".** Özünü təqdim etməmişdi. O gedəndən sonra bölüyümüzün bir əsgəri həsədlə mənə yaxınlaşıb demişdi: **"Sən bilirsən o kim idi? O, kəşfiyyat bölüyünün komandiri Orucovdur. Dəhşət cəsur adamdır".**

Sonralar bir-iki görüşümüz, söhbətlərimiz də oldu. Doğrudan çox cəsur, sözdə yox, əməldə vətənsevər bir insan idi. Kəlbəcərə keçib erməni ordusunun sıra düzülüşünü, hər cür mövqelərini hətta videokameraya çəkib gətirmişdi, buna görə "İgidliyə görə" medalı, vaxtından qabaq kapitan rütbəsi almışdı. İş elə gətirdi ki, bir dəfə onun kiçik qrupla məhz dayandığım postdan cəbhə xəttini keçməsini görmək də qismətim oldu. Problemlərdən danışardı, ancaq bunu "öz aramızda qalsın, ağlaşma quran kimi görünmək istəmirəm" xarakterində edərdi.

Onun komandirliyi dövründə bizim briqadanın kəşfiyyat bölüyü nəinki bütün korpusda, bütün orduda ilk sıralarda gedirdi. Yadımdadır ki, 1999-cu ilin yayında Seyfəli poliqonunda təlim zamanı Orucovun kəşfiyyatçıları Gəncədə yerləşən məşhur hücumçu briqadalardan birinin kəşfiyyat bölüyünü "əsir" almışdı.

Əsgərlərin sağlamlığına fikir verirdi. Az qala saunaya bənzər bir hamam düzəltdirmişdi onlar üçün. Kəşfiyyatçı olmasam da, hətta arada mən də gedib orda çimirdim.

Kəşfiyyatçılıq xəbər gətirmək baxımından ordunun jurnalistləri kimi bir sahədir əslində. Bu baxımdan, kəşfiyyatçı Orucov 17 il qabaq məni də ələ keçirmişdi, ancaq satmamışdı. Bunu heç vaxt unutmaram, onun həm də jurnalistikaya hörməti kimi yadımda saxlamışam.

Belə adamlar haqda yazanda çoxları deyirlər: "Niyə onları sağlığında qiymətləndirmirik, niyə adlarını indi çəkirsiniz, niyə vaxtında yazmadınız?" Bəlkə ona görə ki, Orucov özü bunu istəmirdi? Axı o, çox təvazökar adam idi həm də. Üstəlik, bizim ölkə qəhrəmanlarına sağlığında badalaq vuran rejimin əlindədir. İki gün qabaq Orucov haqda sosial şəbəkədə xatirəmi yazanda altdan çoxlu şərhlər gəldi. Birini Murovdakı bölük komandirim, çox cəsur və gözəl insanlardan biri Eyvaz Səmədov yazmışdı. Dostu Orucovu xatırladığıma görə sağ ol deyirdi. Bəs onun özü hardadır? Rusiyanın hansısa şəhərində işləməyə məcburdur.

Şərhlərdən birini keçmiş deputat Nazim Məmmədov yazmışdı: "Mənim yerlim, gədəbəyli hərbi həkim Zeyniyev Bəhlul da Orucov haqda çox xoş sözlər deyir". Bəhlul həkim kimi yüksək əxlaqlı adam mənim yadımdan çıxarmı? Sən demə, bu adama hələ də ev verməyiblər, kirayədə qalır. 1999-da kapitan idi.

Murov zonasında ən nümunəvi hərbi hissəni yaradan Elşən Qapaqovu necə yada salmayım? Onun mən tərxis olunanda dediyi "Əsgər, səndən xahiş edirəm, gedəndə qəzetdə məndən yaxşı heç nə yazmayasan, yoxsa burda incidəcəklər" sözlərini necə unudum? Birdirmi, beşdirmi?

Polkovnik Orucovun 2 azyaşlı oğlunun atalarının adına layiq ölkədə yaşamasını diləyirəm.

# 4 günlük savaşda dövlətlər sınaqdan necə çıxdılar?

## Ermənistanı dünyada heç bir ölkənin açıq dəstəkləməməsi yeni vəziyyət yaradır

**Aprelin ilk günlərində Qarabağ cəbhəsində müharibədə Azərbaycanın haqq işinə dünyanın əksər ölkələrindən dəstək gəldi, beynəlxalq təşkilatlar Ermənistanın işğalçı mahiyyətini qınadı. Beynəlxalq aləmdə mövqelərinin necə dayanaqsız və çürük olduğu üzə çıxan Ermənistana heç erməni diasporu belə dəstək olmadı. 4 günlük savaş Azərbaycan və Ermənistan ordularının üstünlükləri, əyər-əskiklikləri ilə bərabər, bəzi geosiyasi gerçəkləri də ortaya çıxardı. Məsələn, Azərbaycan ordusunun, bütövlükdə cəmiyyətin Ermənistan toplumundan mənəvi-psixoloji üstünlüyünü üzə çıxardı. Ordumuzun ermənilərin silahlı birləşmələrindən hər cəhətdən dəfələrlə üstün olduğu bəlli oldu. Ayrıca, o da bəlli oldu ki, Ermənistan ordusu adına fəaliyyət göstərən qurum, sadəcə, başıpozuq, korrupsioner, cinayətkar, qlobal terror təşkilatlarından yararlanan və onlarla iç-içə olan kriminal güc mərkəzidir. Eyni zamanda vahid mərkəzdən idarə olunan bütöv bir sistemə malik deyil.**

Qarabağda bir neçə günlük müharibə ayrı-ayrı dövlətlər üçün də necə möqve ortaya qoyması baxımından bir sınaq sayıla bilər. Bəs kim sınaqdan necə çıxdı?

Siyasi ekspert Bəxtiyar Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son 10-15 ildə bir çox ölkədə daha çox Ermənistanın fəallığı müşahidə olunurdusa, Dağlıq Qarabağın müstəqil ölkə kimi tanınması çağırışları eşidilirdisə, Minsk Qrupu həmsədrlərinin hər üçünün, həm Rusiya, həm Fransa, həm ABŞ-ın erməni tərəfinin mövqeyinə yaxın bəyanatları eşidilirdisə, erməni diasporasının sıx yaşadığı ölkələrdə bu istiqamətdə tədbirlər, konfranslar, çağırışlar müşahidə edirdiksə, bu gün çox şey tərsinədir. Həm Qərb dövlətlərinin böyük əksəriyyəti, həm beynəlxalq media, həm beynəlxalq qurumlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqe sərgilədilər. Eyni zamanda Ermənistanın dəstək gözlədiyi bir çox ölkələr, o cümlədən KTMT-nin üzv dövlətləri Azərbaycanın ərazi bütövlüyünə dəstəklərini ifadə etdilər: "Belə bir mənzərə ortaya çıxdı ki, Ermənistanı dəstəkləyən yeganə dövlət Rusiyadır. Zənnimcə, aprel gərginliyi bütün dünyaya bu münaqişənin yaranmasında olduğu kimi, həll edilməməsində də yalnız Rusiyanın Ermənistana dəstəyinin rol oynadığını bir daha göstərdi. Eyni zamanda uzun müddətdir Rusiya ilə bağlı



Natiq Miri

cəmiyyətimizdə də kifayət qədər müsbət fikirlər olsa da, son gərginlikdən sonra Rusiya Azərbaycan cəmiyyətində öz nüfuzunu itirdi. Rusiya keçmiş SSRİ ölkələrindən əvvəlcə Baltikyanı ölkələri, sonra Gürcüstanı, sonra Ukraynanı itirdi. İndi isə görünən odur ki, münaqişə yaratmaq və münaqişələrin həllinə mane olmaq siyasəti ilə Azərbaycan cəmiyyətinin də rəğbətini itirib".

**Politoloq Natiq Miri hesab edir ki, bir neçə günlük savaş çərçivəsində bir çox geosiyasi reallıqlar ortaya çıxmış oldu. Bunlardan ən əhəmiyyətlisi ondan ibarətdir ki, Ermənistan hətta iştirak etdiyi bloklardakı müttəfiqləri tərəfindən birmənalı olaraq müdafiə olunmadı:** "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Ermənistan adi bir quru bəyanat səviyyəsində belə müdafiə edilmədi. Hətta KTMT-nin üzvlərindən Qazaxıstan və Belarus Azərbaycanın mövqeyini müəyyən mənada müdafiə etdilər. Həmin ölkələr həm də Ermənistanla birlikdə Avrasiya İttifaqında təmsil olunurlar. Avrasiya İttifaqı çərçivəsində də Rusiya daxil Ermənistan müdafiə olunmadı. Doğrudur, Rusiya dərhal savaşın dayandırılması üçün nazirlər səviyyəsində, ən nəhayət, prezident səviyyəsində Azərbaycana və Ermənistana müraciət etdi. Ancaq bu savaş çərçivəsində Azərbaycanı qətiyyən ittiham etmədi, eyni zamanda qarşı duran tərəflərdən heç biri açıq müdafiə olunmadı. Bir növü, Rusiya hakimiyyəti çərçivəsində tərəzinin gözündə balans gözlənildi. Doğrudur, Rusiya mediasının böyük qismi Ermənistanı müdafiə etdi, lakin rəsmi dövlət səviyyəsində bu edilmədi. Kreml balansı mümkün qədər gözləməyə çalışdı. O ki qaldı Qərb dünyasına, onlar bu qısamüddətli döyüş çərçivəsində Ermənistan prezidentinin burnunun ovulmasının tərəfdarı olduqlarını öz davranışları ilə nümayiş etdirdilər. Ermənistanı Qərb dünyası müdafiə etmədi. Və bu da Sərkisyan hakimiyyəti üçün bəzi gerçəkləri ortaya qoydu. Qərb dünyası açıq şəkildə olmasa da dolayısı ilə Azərbaycanı müdafiə etmiş oldu. Sınaqdan ən yaxşı çıxan və Qarabağ məsələsində haqqın yanında olduğunu dünyaya göstərən isə Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı oldu. Bu ölkələr açıq şəkildə Azərbaycanın ədalətli mövqeyini müdafiə etdilər. Hətta Azərbaycana hər cür yardım etməyə hazır olduqlarını bildirdilər. Bir sözlə, Azərbaycan dövləti və cəmiyyəti kimin kim olduğunu xeyli dərəcədə qətiləşdirdi özü üçün".

**Ekspert diqqəti bu amilə də çəkdi ki, döyüşlər başlayandan dayandırılanadək döyüşlərin dayandırılması çağırışlarından kənar heç bir təhdidedici çağırış olmadı Azərbaycana:** "Bu faktor əslində Azərbaycanın hərbi əməliyyatları daha bir neçə gün uzatması üçün müəyyən şərait yaradan amil idi. Ancaq nədənsə dövlət buna getmədi"

**N.Mirinin fikrincə, bir neçə günlük müharibəyə beynəlxalq reaksiya, münasibət artıq bir yeni geosiyasi şəraitin yarandığını ortaya qoydu. Həm Azərbaycan, həm də Ermənistan bundan sonra həmin yeni şəraiti nəzərə alaraq hərəkət etməli olacaq:** "Ən əsası odur ki, Ermənistanın təklənmək üzrə olduğu geosiyasi şəraitin yarandığı ortadadır. Qərb dünyası, dünyanın əksər dövlətləri əslində Azərbaycanın öz torpaqlarını azad etməsi haqqının doğal haqqı olduğunu tanıdı. Bundan sonra bu məsələdə Azərbaycana daha ciddi dəstək verilməsi üçün Azərbaycan bir dövlət olaraq mütləq mənada cəlbedici olmalıdır. Qərb dünyası üçün cəlbedici olmaqdan ötrü Azərbaycan hakimiyyəti mütləq mənada bütün sferalarda ciddi islahatlara başlamalıdır. Azərbaycanda demokratiya və insan haqları yönündə irəliyə ciddi addımlar atılarsa, istənilən an savaş başlayacağı halda Azərbaycana açıq dəstək veriləcək".

❑ Etibar SEYİDAĞA

# 4 günlük savaşla bağlı şimaldan təhlükəli gözlənti

**Ötən sayımızda Azərbaycan ordusunun Qarabağdakı bllts-zəfərində "Türkiyə izi"ndən yazmışdıq. Söhbət iki qardaş ölkə arasında hərbi sahədə son illər dərinləşən əməkdaşlığın gətirdiyi ilk sanballı töhfədən, bölgədə həm Azərbaycan, həm də Türkiyənin nüfuzunun artmasından gedir - hansı ki, ən çox Rusiyanı narahat etməkdədir.**




# Kreml Bakı və Ankaraya revanş-sürpriz hazırlayır - iddia

## Prezidentlər Əliyev və Ərdoğanın qarşılıqlı səfərlərinin gözlənildiyi apreldə, uydurma soyqırımın ildönümündə iki qardaş ölkə yeni sınaqla üzləşə bilər; **türkiyəli analitik xəbərdarlıq edir:** "Azərbaycan Türkiyəyə yaxınlaşdıqca, Rusiya Qarabağ kartından daha güclü istifadə edəcək..."

Moskvanın münaqişə zonasındakı son gərginliyə görə hələ də Ankaranı suçlu çıxarmasının əsas motivini də məhz bu amillə bağlamışdıq. Kreml xüsusən də 24 noyabr təyyarə insidentindən sonra Azərbaycan-Türkiyə yaxınlaşmasına əndişə ilə yanaşır, ona görə ki, bu yaxınlaşmanı ilk növbədə özünün Güney Qafqazdakı maraqlarına təhlükə sayır. Bir çox təhlilçilər Dağlıq Qarabağ konflikti zonasında yaşanan 4 günlük müharibənin əsas səbəbləri sırasında bu faktoru önə çəkməkdədirlər.

***

"Təmas xəttində ermənilərin son provokasiyasının arxasında Azərbaycanın Türkiyəyə yaxınlaşmasından dolayı Rusiyanın narahatlığı dayanır. Bu, atəşkəs rejiminin ermənilər tərəfindən pozulmasının əsas səbəbidir. Ancaq nə olur-olsun Türkiyə bundan sonra da Azərbaycanı müdafiə edəcək". Bunu rusdilli vesti.az saytına türkiyəli analitik, Strateji Tədqiqatlar Mərkəzinin prezidenti Yusif Çinar bildirib.

**Analitik daha sonra cəbhədəki situasiyanın ağırlaşması ərəfəsində Rusiya XİN rəsmisi Mariya Zaxarovanın "Türkiyə və Rusiya arasında böhran müvəqqəti xarakter daşıyır" bəyanatını xatırladaraq deyib:** "Bunun ardınca Türkiyə baş naziri Əhməd Davudoğlu bəyan elədi ki, iki ölkə arasında gərginlik çox çəkməyəcək. Bu bəyanatların ardınca münasibətlərdə yumşalma gözlənilirdi. Lakin cəbhə xətindəki vəziyyətin qəfil pisləşməsi bu ehtimalı azaltdı. KİV-lərdə belə bir informasiya keçdi ki, Rusiya yaxın zamanlarda Ermənistanda öz hərbi mövcudluğunu artıracaq, onun ərazisində 5 min nəfərlik hərbçi və yeni silahlar yerləşdirəcək. Səbəb kimi də Azərbaycanın regional inkişaf sahəsində Rusiyanı "bort arxasında" qoyması göstərilirdi".

"Xatırladım ki, birinci Qarabağ müharibəsi zamanı Rusiya işarə vurmuşdu ki, əgər Türkiyə ilə yaxınlaşan Elçibəy Rusiyanı qulaqardı etməsəydi, Azərbaycan Qarabağı itirməzdi. "Su 24" təyyarəsi ilə bağlı insidentdən sonra isə Moskva Azərbaycanla Türkiyə arasında münasibətlərin necə güclü şəkildə yaxşılaşdığını qısqanclıqla müşahidə edir" - ekspert qeyd edib.

**Onun sözlərinə görə, bu yaxınlaşma nə qədər dərin olsa, Rusiya bir o qədər tez-tez Qarabağ kartından istifadə edəcək.** "Rusiya Azərbaycana təzyiq rıçaqı üçün Dağlıq Qarabağ münaqişəsi ilə spekulyasiya edir. Moskva Suriya böhranına müdaxilə etdikdən sonra Dağlıq Qarabağ probleminin həllinə öz təsirini nümayiş etdirmək istəyirdi. Ancaq gözləntilərində bərk yanıldı. Rusiya ermənilərin provokasiyasına Azərbaycanın belə sərt cavab verəcəyini gözləmirdi. Azərbaycan nəinki Ermənistanın hücumuna duruş gətirdi, eyni zamanda Qarabağ məsələsində öz qətiyyətini nümayiş etdirdi".

***

Türkiyəli analitikin fikirləri gerçək olmaqla yanaşı, həm də narahatlıq doğurur və xəbərdarlıq xarakteri daşıyır. Bu xəbərdarlığın da mahiyyəti ondan ibarətdir ki, Moskva münasibətləri durmadan dərinləşən Azərbaycan və Türkiyəyə ermənin əli ilə, Qarabağ kartından istifadə eləməklə, habelə, 4 günlük savaşın revanşı kimi yeni sürpriz etmək istəyinə düşə bilər. Saxta erməni soyqırımının yaxınlaşan növbəti ildönümü bu ehtimalı gücləndirir ki, zəifləmir.

Məsələ də ondadır ki, bu həftə prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının toplantısında iştirak eləmək üçün Türkiyəyə səfər edəcək. Ayın sonlarında *(aprelin 25-də)* isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT tədbirində iştirak üçün Bakıya gələcək.

Hər iki tədbir əslində beynəlxalq miqyaslı olsa da, aydın məsələdir ki, Ankara-Bakı müttəfiqliyinin dünyaya növbəti nümayişi ilə yadda qalacaq. Demək, yüzdə yüz Moskvada əlavə qıcıq doğuracaq. Bu mənada xüsusən də aprelin 24-də - uydurma "genosidin" ildönümü və Ərdoğanın Bakı səfəri ərəfəsində Kremlin Azərbaycanı ümidverici sülh danışıqları ilə "yuxuya verib" cəbhədə yeni bir təxribat hazırlamayacağına əminlik yoxdur - üstəlik, erməni də indi revanş istəyi ilə alışıb-yanırsa...

Onu da unutmayaq ki, qardaş ölkə liderinin Bakı səfəri son iki ayda iki dəfə terror aktları səbəbi ilə təxirə salınıb və bu olayların arxasında "rus barmağı" da görünüb. Yəni sürpriz Qarabağla bağlı olmaya da bilər...

❑ **Siyasət şöbəsi**

# Ermənistan təlaşda, düşmən ölkə İsraili Bakıya silah satmamağa çağırır

## **Arzu Nağıyev:** "Ermənistan cəbhədəki məğlubiyyətini ört-basdır etmək üçün bəhanələr uydurur"

**Aprelin ilk həftəsindəki lokal döyüşlərdə Azərbaycan ordusunun Ermənistana ağır zərbə vurması düşmən ölkədə ciddi təşviş yaradıb. İşğalçı ölkənin rəsmi qurumları bir neçə artilleriya qurğusu, həmçinin 14 tankını itirdiyini etiraf edib.**

Bir sıra xarici mənbələr də hesab edir ki, Azərbaycanın İsrail istehsalı olan silahlardan istifadə etməsi Ermənistana baha başa gəlib. Artıq İrəvan Təl-Əvivi Bakı ilə hərbi əməkdaşlıqdan çəkindirmək üçün hərəkətə keçib. Ermənistanın Misir və İsraildəki səfiri Armen Melkonyan İsrailin Azərbaycana silah satışını dayandırması üçün etiraz notası ilə ötən həftə Qüdsə gedib. İsrailin aparıcı "Haaretz" saytı bildirib ki, XİN-in "Avrasiya" şöbəsinin müdiri Dan Oriyan erməni səfirlə görüşüb. A. Melkonyan ona içərisində İsrailin Azərbaycana silah satışını dayandırması ilə bağlı tələbin yer aldığı rəsmi etiraz notası təqdim edib.

Qeyd edək ki, İsrail silah istehsalına görə dünyada 4-cü, pilotsuz təyyarələrin buraxılışı üzrə isə Birləşmiş Ştatlardan sonra ikinci yeri tutur. 2011-ci ildə Azərbaycan İsraillə ümumi məbləği $1,6 mlrd. həcmində silah və hərbi texnikanın alınmasına dair müqavilə bağlayıb. Bəs düşmən ölkənin bu cəhdləri İsrail-Azərbaycan hərbi əməkdaşlığına problem yarada bilərmi?



**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, bütün bunlar ermənilərin cəbhədə məğlubiyyətini ört-basdır etmək üçün apardıqları siyasətdir:** "Yəni məğlubiyyəti kiməsə yazmaq lazımdır. Göründüyü kimi, bunu bir tərəfdən Türkiyə ilə, digər tərəfdən İsrail silahları ilə ört- basdır etməyə çalışırlar. Məlumdur ki, bütün statistik göstəricilərdə silahların sayı təxminən eynidir. Burada tanklar, PDM, artilleriya və raket qurğuları üstünlük təşkil edir. Ermənilər sovet dönəmindən qalan silahlarla da silahlanıb və elə başa düşürdülər ki, süni yaradılan "erməni mifi" güc gələ bilər və təbii ki, bu mif sındı. Azərbaycan isə hətta həmin silahları belə öz gücü hesabına modernləşdirdi, yeni kadr potensialı hazırladı".

**İsrail məsələsinə gəldikdə isə A.Nağıyev bildirdi ki, ermənilərin bu hay-küyü yenilik deyil:** "2008-ci il rus-gürcü qarşıdurmasında Moskvanın xahişi ilə İsrailin Tiflislə əməkdaşlıqdan imtina etməsi məsələsi var idi. Ermənilər elə başa düşürlər ki, İsrail Azərbaycan məsələsində belə bir qərar verəcək. Ancaq bu, inandırıcı deyil və təbii ki, baş tutmayacaq. Erməniləri əsas qorxudan silah isə müasir və GPRS sistemlə işləyən Heron və Searcher PUA-lardır. Bunları idarə edənsə yüksək ixtisaslı milli mütəxəssislərdir. Yəni Ermənistan elə düşünür ki, bu müraciətlərlə nəyəsə nail ola bilər. Xeyr. Qeyd etdiyimiz kimi, bu, əsasən məğlubiyyəti kiminsə üzərinə qoymaqdır".

**Politoloq düşmən ölkənin də kifayət qədər silahlandığını xatırlatdı:** "Ermənilərdə də Rusiyadan alınmış P-17 (Scud-B) raketləri var. Lakin bizdə onların qarşısını alan sistemlərin mövcudluğu bu silahdan istifadə etməyə imkan vermir və təcavüzkar bunu gözəl başa düşür. Bu gün belə bəyanatlarla ermənilərin bir ümidi var, Azərbaycanla texnoloji fərqi azaltmağın bir yolu Moskvadan yeni silahların alınmasıdır".

**Bəs Ermənistan bu yolla İsraili ona da eyni tip silahları satmağa vadar edə bilərmi? A.Nağıyev:** "Bu inandırıcı görünmür. Birincisi, Rusiya buna imkan verməz, ikincisi də İsrail öz silah bazarında böyük oyunçu olduğu üçün Ermənistanla bu alverə getməz. Yəni bir sıra böyük dövlətlər İsrail silah bazarından imtina edə və çıxa bilərlər".

**"Ermənistanın İsrailə Azərbaycana silah tədarükünün dayandırılması üçün nota verməsi diplomatik cəhətdən savadsız, qeyri-düzgün addımdır". Bunu isə azvision.az-a açıqlamasında Azərbaycan Respublikasının Milli Məclisinin yəhudi əsilli deputatı Yevda Abramov deyib. Deputat bildirib ki, Ermənistanın bu addımı bir ölkənin digərinə təsir etməsi kimi qiymətləndirilməlidİr:** "Ermənistanın səlahiyyəti çatmır ki, bu barədə İsrailə nota versin. İsrail müstəqil dövlətdir və silah satışı ilə məşğuldur. Bu baxımdan kimə nə satdığının məsuliyyətini özü daşıyır. Ermənistan Azərbaycana silah satışının dayandırılmasını heç vaxt diktə edə bilməz".

**Y.Abramov vurğulayıb ki, İsrailin Azərbaycan satdığı silahlar qaçaqmalçılıq yolu ilə yox, xüsusi müqavilələrlə göndərilir:** "Ermənistanın İsrailə notası diplomatik etiketləri pozur. İsrail kifayət qədər mövqeyi olan demokratik dövlətdir. Kimə nə satdığının məsuliyyətini dərk edir. Regionda səsi və gücü var. O cümlədən regionun spesifikasını əzbər bilir. Ermənistan kimi bir dövlətin yalvarışları, İsrailə təsir etməyə çalışması düzgün addım deyil. Heç kim İsrailə nə etməli olduğu barədə təsir edə bilməz".

**Deputat qeyd edib ki, Azərbaycan işğalçı Ermənistana silah satılmaması ilə bağlı heç bir dövlətə nota verməyib:** "Biz bunu heç kimə deməmişik. Nota vermək kifayət qədər ciddi addımdır. Hesab edirəm ki, İsrail belə notaları ciddiyə almayacaq. Ermənistan bu addımı ilə bir daha sübut edir ki, marionet, qorxaq, ikiüzlü dövlətdir. Ona görə də atdığı addımlar diplomatiyaya qeyri-adekvatdır".

Qeyd edək ki, bu, Ermənistanın ölkəmizə silah satışını dayandırması üçün dünya ölkələrinə etdiyi tək etiraz deyil. Bir neçə gün öncə Ermənistanın baş naziri Ovik Abramyan Rusiyanı da Azərbaycana silah satmamağa çağırmışdı. Erməni prezident Serj Sərkisyan isə Moskvanın Bakıya silah satmasını "əxlaqsızlıq" adlandırmışdı. Lakin Rusiyanın baş nazirinin müavini Dmitri Roqozin bildirib ki, Rusiya mövcud müqavilələrə uyğun olaraq Azərbaycana silah satışını davam etdirəcək.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

**Aprelin 3-də müasir jurnalistika tarixində konfidensial informasiyaların "Panama sənədləri" adlandırılan ən iri sızması baş verib. Belə ki, yüzlərlə beynəlxalq jurnalist və KİV, eyni vaxtda böyük offşor hesablarının sahibləri haqqda ifşaedici materialları "Panama sənədləri" ("Panama Papers") adı altında dərc edib. Onların arasında dünyaca məşhur çoxsaylı simalar, keçmiş və indiki dövlət başçıları, sənətçilər, yüksək çinli məmurlar, mafiya liderləri də var.**




# Panamanın altındakı böyük sirr-tufan hələ indi başlayıb...

## Ekspertlər bildirirlər ki, "Panama sənədləri" adlandırılan məlumatların bu cür kütləvi şəkildə sızdırılması davam edəcək, ciddi qərarlar olacaq

Mərkəzi Panama Respublikasında yerləşən "Mossak Fonseka" hüquq firması-araşdırma təşkilatı (OCCRP - İSİJ) adından yayılan sənədlərin 2,6 terabayt həcmində və 11,5 milyon fayldan ibarət olduğu deyilir. İddialara görə, həmin sənədlər təxminən 40 illik müddəti (1977-2015) əhatə edir və 214 min şirkət (hüquqi şəxs) və 14 min fiziki şəxs (müştəri) haqqında gizli məlumatı özündə ehtiva edir. Qeyd edək ki, qısa zamanda məşhurlaşan "Panama Papers"in bütün araşdırmaları artıq milyonlarla insanın diqqətini cəlb edib. Arxiv sənədləri əsasında aparılan tədqiqatların əsas mövzusu siyasətçilər və onlara bağlı şəxslərin gizli mülkiyyətidir. Sənədlər "Süddeutsche Zeitunq" alman qəzeti tərəfindən əldə edilib və Vaşinqtonda mənzillənən Beynəlxalq Jurnalist Tədqiqatları Konsorsiumunun köməyi ilə dünyadakı 107 media qurumuna paylanaraq bütün dünyaya yayılıb. BBC-nin məlumatlarına görə, bir sıra müstəqil və etibarlı ekspertlər tərəfindən obyektiv və qərəzsiz şəkildə təhlil edilən ilkin sənədlər böyük ictimai maraq kəsb edir.

***

Qeyd edək ki, vergidən yayınma, gəlirlərin gizlədilməsi, narkotik qaçaqmalçılıq və sair kimi neqativ hallarla bağlı tez-tez offşor zonalar, offşor şirkətlərin adları hallanır. Hətta normal vergi, gömrük qanunvericiliyi olan Lüksemburq, İsveçrə kimi dövlətlərdə də şərti offşor zonalar fəaliyyət göstərir. Adətən offşor zonalar ayrı-ayrı dövlətlərin ada və anklav ərazilərində yaradılır və ya ada dövlətlərin özləri bütövlükdə offşor zonalar olur. Offşor zonaların yaradılmasının dövlət üçün əhəmiyyəti ondan ibarətdir ki, öz ərazilərində bu cür zonalar yaratmaqla dövlət xarici investisiyaların cəlb edilməsini, yeni iş yerlərinin yaradılmasını təmin edir. Əksər şirkətlərin can atdığı başlıca məqam vergilərdən yayınmaqdır. Offşor şirkətlər üçün qeydiyyat ölkəsində kifayət qədər vergi güzəştləri mövcuddur və onlar adətən bütün yerli vergilərin ödənilməsindən azaddırlar. Qeydiyyat prosesi də çox qısa zamanda həll olunur.

***

**Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, offşor regionlar arasında çox müxtəlif bölgələr var:** "Kayman adaları, Britaniyada Virgin adaları, Baham adaları, Bermud adalarıdır. Ölkə olaraq Uruqvayda, Panamada offşor şirkətlər daha geniş yayılıb. Eyni zamanda hətta Avropada, Finlandiyada, Lüksemburqda da qeydiyyata alınıb. Əlavə olaraq Honkonqda, Sinqapurda, Birləşmiş Ərəb Əmirliyində də offşor şirkətlər qeydiyyatdan keçib. Əvvələ, bu şirkətlər hamısı beynəlxalq maliyyə mərkəzləri ilə çox sıx əlaqədə fəaliyyət göstərir. Burada çox əlverişli vergi sistemi tətbiq olunur. Eyni zamanda demək olar ki, ölkələrdəki vergilərlə müqayisədə vergi dərəcələri çox aşağı olur. Bank sistemi daha liberallaşdırılıb. Bu ərazilərdə qeydiyyatdan keçən şirkətlər az vergi ödəməklə daha liberal bank sistemindən bəhrələnməklə çalışırlar ki, öz fəaliyyətlərini orada qursunlar, oradan da öz bizneslərini idarə etsinlər. Offşor şirkətlərin həm də infrastruktur baxımından üstünlükləri var. Şirkətlərdə həm də kifayət qədər yüksək səviyyədə mühafizə olunan anbar təsərrüfatları var, eyni zamanda bu ərazidə yerləşən şirkətlər üçün daşınma və müəyyən istiqamətlərdə nəqliyyat işinin təşkili də kifayət qədər yaxşı qurulub. Bu baxımdan da şirkətlər həmin əraziləri tərk edir. Həmin əraziləri həm də azad ticarət zonası adlandırırlar. Bu ərazilərdə maliyyə institutlarının geniş şəbəkəsi də olur. İstənilən əməliyyatların aparılması üçün baryerlər olmur. Aşağı vergi və təminatlı bank sistemi bu zonaları cəlb edən əsas üstünlüklərdən sayılır".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, offşor şirkətlər vergidən yayınmaq üçün gedilən yoldur:** "Dünyada offşor zonalar arasında Virgin adalarının, Panamanın daha çox adı çəkilir. Avropada əvvəl Lüksemburq, Kipr də bu sıraya daxil idi. İndi qanunvercilikdə bəzi dəyişikliklər olub və orada offşor zonaların saxlanması sərfəli olmadı. Əslində qanunvericilikdə də belə bir problem yoxdur. Offşor zonalarda şirkətlərin yaradılması qlobal olaraq qanun pozuntusu deyil. Amma sadəcə vergidən yayınmaq üçün, vergi qaçaqmalçılığı, vergidən qaçmaq üçün offşor şirkətlərin yaradılması və bəzi əməliyyatların bilərəkdən offşor şirkətlər üzərindən aparılması problemdir. Bu, dünyanın nəzərində olan problemdir. "Böyük 20-lik" və "Böyük 7-lik"in son görüşlərində ən çox müzakirə olunan məsələlərdən biri də məhz offşor zonalarda həm terrorizmlə bağlı, həm silah alveri, narkotiklə bağlı çirkli pulların vergidən yayınmaq üçün istifadə olunması ciddi müzakirə mövzusu oldu. Son vaxtlar offşor zonalarda şəffaflığın artırılması və bununla bağlı müəyyən araşdırmaların getməsi həm də ona xidmət edir ki, artıq qlobal bir qərar da var. Çox güman ki, bu trend davamlı olacaq. Bir çox offşor zonalarla bağlı bilgi sızdırılması, onlarda olan məlumatların dünya mediasına çıxması davamlı olacaq. Panama şirkətləri ilə bağlı açıqlanan sənədlər düşünürəm ki, ilkin etapdır. Bundan sonra Britaniyanın Virgin adaları ilə bağlı, ABŞ-da vergi cənnəti olan offşor zonalarla bağlı ciddi qərarlar olacaq. Həmin yerlərdə şirkətlər daha çoxdur. Panamada son sızdırılan 11 milyon şirkət haqqında məlumat varsa, Virgin adalarında bundan bəlkə də 5-6 dəfə çox şirkətlərin olması ehtimalı da var. Həmin ölkələrin, həmin zonaların əvvəlki qanunvericiliyində tam məxfi qarantiyası vardı. Həmin şirkətlər, sahibləri haqqında məlumatla bağlı məxfilik zəmanəti vardı. İndi bu zəmanət demək olar ki, aradan götürülür. Düşünürəm ki, yaxın aylarda, illərin dünyada ən böyük qlobal müzakirə mövzularından biri məhz bu offşor zonaların şəffaflaşması və vergi qaçaqmalçılığı, çirkli pulların yuyulması ilə bağlı qlobal mübarizə kimi yadda qalacaq. Bir maraqlı fakt da ondan ibarətdir ki, ABŞ Ədliyyə Nazirliyi yanında müstəqil bir qrup yaradılıb, onlar gənc müstəntiqlərdən ibarətdir. Onlara bir səlahiyyət də verilib, bütün dünya üzrə zonaların vergi qaçaqmalçılığı və çirkli pulların yuyulmasını təftiş edəcəklər. Təftiş gələcəkdə çox ciddi problemlərin üzə çıxması ilə nəticələnə bilər, çox böyük siyasi skandallarla nəticələnə bilər. Artıq İslandıyanın baş naziri istefa verdi. Britaniyada baş nazirə böyük etirazlar var. Yəni dünyada bu trend yaxın gələcəkdə ən ciddi müzakirə mövzularından biri olacaq".

***

**Ekspert Sülhəddin Əkbər isə bildirib ki, bir çox ölkələrdə maliyyə kəşfiyyatı deyilən qurumlar var:** "Bəzi ölkələrdə bir neçə qurum bu işlə məşğuldur. Birincisi, bu, maliyyə kəşfiyyatı qurumlarının vəzifəsidir ki, bu tip informasiyaları toplasın və müəyyən etsinlər ki, kimlərin gizli hesabları var, kimlər qanundankənar biznes fəaliyyəti ilə məşğuldur, kimlər çirkli pulların yuyulması ilə özünün maliyyələşdirilməsi ilə məşğuldur və sair. O baxımdan, bu iş maliyyə kəşfiyyatının bir növ vəzifəsidir. Maliyyə kəşfiyyatı da əksər ölkələrdə var. Digər tərəfdən, əksər inkişaf etmiş ölkələrin kəşfiyyat xidmətləri də bununla məşğuldurlar. Amma onu da nəzərə almaq lazımdır ki, dünyada müstəqil, eyni zamanda bəzi orqanlarla əlaqəli haker qrupları da var. Ona görə də konkret fikir söyləmək çox çətindir ki, hansı informasiyalar kim tərəfindən ələ keçirilir, oğurlanır, mətbuata sızdırılır. Son yayılan sənədlərə baxsaq, çox müxtəlif istiqamətlərdən, çox müxtəlif dövlətlərin dövlət və hökumət başçılarının məlumatları var. Yəni informasiyanı yayanlar kifayət qədər məlumatlıdırlar. Ona görə də hər hansı konkret fikir söyləmək çox çətindir. Amma "Vikileks" layihəsindən sonra ümumiyyətlə dünyada bir tendensiya yaranıb ki, şəffaflıq və hesabatlılıq artır. Ona görə də düşünürəm ki, dünyanın gələcəyi bu istiqamətdə olacaq. Hətta İsveçrə banklarında olan hesablar da açılır, dünyada elə bir vəziyyət yaranacaq ki, gizli qalan bank hesabları olmayacaq. Çünki bir tərəfdən demokratiya inkişaf edir, insanların informasiya almaq hüququ var. O biri tərəfdən qlobal terrorizmlə mübarizə bunu tələb edir. Çünki bu gizli hesablar qaldıqca gizli pulların yuyulması da davam edəcək, terrorizmin maliyyələşməsi də davam edəcək. Ona görə də dünyanın gələcəyini maliyyə sisteminin şəffaflaşmasında görürəm".

❑ Röya RƏFİYEVA

# Penitensiar Xidmətə rəis təyinatı niyə yubanır?

## Ən şanslı namizədlər qurumda çalışan müavinlərdir, amma...




**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəisi vəzifəsinə təyinat yubanır. 5 aydan bir qədər artıq müddətdir ki, bu posta namizədlərin sırasından seçim edilmir. 2011-ci ildən 2015-ci ilin oktyabrına qədər bu vəzifəni hazırda Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəisi olan general-leytenant Mədət Quliyev tutub. Onu Milli Təhlükəsizlik Nazirliyindəki (MTN) məlum olaylardan dərhal sonra hakimiyyətin etibarlı kadrlarından biri kimi quruma nazir müavini təyin etdilər. Az sonra isə MTN ümumiyyətlə buraxıldı və bazasında DTX yaradılaraq M.Quliyev bu quruma rəis təyin olundu. Buna qədər Penitensiar Xidmətin rəhbərliyinə M.Quliyevin qayıdacağı haqda fikirlər olsa da, təyinatdan sonra vəziyyət tam aydınlaşdı. Hazırda Penitensiar Xidmətin rəisi vəzifəsi boşdur. Aylardır ki, qurum rəhbərliyinə ən müxtəlif şəxslərin gətiriləcəyi haqda mükizələr aparılır.**

Ən real namizəd kimi hazırda Penitensiar Xidmətin rəisi vəzifəsini icra edən, illərdir qurumda rəis müavini vəzifəsini tutan Hüseynağa Əlixanovun adı çəkilir. H.Əlixanovun öz işini bilən, qüsursuz xidmət aparan kadrlardan olduğu deyilir. Bildirilir ki, H.Əlixanovun təyinatı üçün elə bir ciddi problem yoxdur. Bununla belə, qurum rəhbərliyinə iddialı olanlar da az deyil. Məsələnin bu tərəfi də var ki, H.Əlixanov kimi Penitensiar Xidmətdə müavin olan Nizaməddin Cəlilovun da, Penitensiar Xidmətin əməliyyat üzrə rəisi Mirsaleh Seyidovun da adları bu posta iddialılar sırasında çəkilir. Ədliyyə Nazirliyi Cəzaların İcrasına Nəzarət Müfəttişliyinin rəisi Malik Ələkbərovun da bu posta təyinat alma şansı olduğu deyilir. Bir müddət əvvələ qədər İsmayıllının keçmiş polis rəisi Nizami Qocayevin də adı bu posta əsas iddialı şəxs kimi çəkilirdi. Son nəticədə Nizami Qocayev Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Gəncə regional şöbəsinə təyinat aldı.

Azərbaycanda heç kimin gözləmədiyi şəxsin bu və ya digər posta təyinatı praktikası geniş yayılıb. Bu səbəbdən də tamamilə mümkündür ki, Penitensiar Xidmətin rəisi postuna təyinat zamanı da bu praktikaya müraciət oluna bilər. Məsələn, rəis təyin olunacaq şəxs ədliyyə sistemindən deyil, DİN və ya prokurorluq sistemindən gətirilə bilər. Bu baxımdan adları çəkilən namizədlərin hansının təyin olunacağını proqnozlaşdırmaq da çətindir.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Rusiyanın vasitəçiliyi ilə aprelin 5-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin qərargah rəisləri arasında atəşkəs haqqında razılaşma əldə olunsa da, işğalçı ölkə təmas boyu atəşi davam etdirir. Son hadisələrdən sonra Azərbaycan ordusunun malik olduğu silah-sursatın müasir tələblərə cavab verdiyini hətta Ermənistan prezidenti Serj Sərkisyan şəxsən etiraf etdi.**





**Politoloq:** "Əgər Kreml Cənubi Qafqazda müharibənin davamını istəmirsə, Sərkisyanı ilkin şərt irəli sürmədən 5 rayonu azad etməyə məcbur etməlidir"

# Kreml kimin yanındadır - Bakının, İrəvanın?

## İşğalçı ölkədə Rusiya bayrağı yandırılır, Putin hakimiyyəti təhqir edilir, Azərbaycanda isə Moskvanın "sülh siyasəti" şübhə ilə qarşılanır

Çıxılmaz vəziyyətdə qalan düşmən ölkə cəbhədə süni gərginlik yaratmaqla Moskvanın açıq şəkildə onu dəstəkləməsinə nail olmağa çalışır. Düşmən təbliğatının son günlər əsas məqsədi məhz Rusiyanın dəstəyini qazanmaqdır, elə Azərbaycan tərəfdə Türkiyə hərbçilərinin "döyüşdüyü" barədə cəfəng iddialar da buna hesablanıb.

Şəhid hərbçilərimizlə vida mərasimində müdafiə naziri Zakir Həsənov bildirib ki, ermənilər Azərbaycana qarşı cinayət törədiblər və törətməkdə də davam edirlər. Nazir düşməni xəbərdar edib və şəhidlərin qisasının alınacağı vədini verib: "Buna heç kimin şübhəsi olmasın".

Göründüyü kimi, atəşkəs razılaşmasına baxmayaraq, vəziyyət kifayət qədər gərgindir, bunu Ermənistan tərəf də etiraf edir. Ona görə də düşmən ölkə çıxış yolunun tapılması üçün vurnuxmalardadır. Gah Sərkisyan müxalifət liderinin ayağına gedir, gah da Ermənistan parlamentində Dağlıq Qarabağın "müstəqilliyi"nin tanınacağı hədəsi gəlir, gah da Rusiyanın ünvanına olmazın təhqirlər yağdırılır. Düşmən ölkədə anlayırlar ki, Azərbaycan hərbi baxımdan mühüm ərazilərə nəzarəti ələ keçirməklə hər an növbəti əməliyyatlara start verə bilər.

**Elə Rusiyada da atəşkəs razılaşmasının müvəqqəti olduğunu yaxşı bilirlər. Bu arada Rusiya və İsveçrə xarici işlər nazirləri Moskvada Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə ediblər. Görüşdən sonra S.Lavrov bu barədə açıqlama verib. Nazir tərəflərə növbəti dəfə çağırış edib:** "Rusiya Dağlıq Qarabağda münaqişə tərəflərini atəşkəs barədə əldə olunan razılığa riayət etməyə çağırır. Biz İsveçrə ilə bərabər olduqca sadə olmayan münaqişənin siyasi yolla həllində maraqlıyıq".

Çox qəribəsi odur ki, Qarabağdakı son ağır toqquşmalara Qərb dünyasının reaksiyası adekvat olmadı. Düzdür, AŞ PA sədri səviyyəsində bəzi rəsmilər torpaqların azad olunmasına çağırış etdilər, ABŞ dövlət katibinin müavini Bakıya telefon açdı. Lakin genişmiqyaslı toqquşmalara və itkilərə rəğmən, bu, normal reaksiya sayıla bilməz. Sanki Rusiya kimi, Qərb də iki tərəf arasındakı toqquşmaların nə ilə bitməsini sakitliklə izləməyə qərar vermişdi. Hər halda, 3 gündən sonra Moskvanın işə qarışmasını də ABŞ və Avropa sakit qarşıladı. Halbuki məntiqlə Qərb Moskvanın proseslərdə dominantlıq etməsinə yol verməməli idi. Düzdür, Minsk Qrupunun həmsədrləri də gəldi, ancaq onlar öz nüfuzlarını Bakıda çoxdan itiriblər. Rusiya rəsmilərinin son bəyanatlarından anlaşılan o oldu ki, Moskva status-kvonun saxlanmasında daha çox maraqlıdır.

**Qəribə situasiya yaranıb, Ermənistanda Rusiyaya həqarət püskürürlər, onu "satqın" adlandırırlar, İrəvanda Rusiya bayrağı yandırılır, Putin hakimiyyəti təhqir edilir. Ermənistan parlamentinin "İrs" fraksiyasından olan deputatı Tevan Poqosyan Rusiyanı xəyanətdə suçlayıb.** "Hətta Rusiyanın yuxarı hakimiyyəti belə anlamır ki, onların strateji müttəfiqi Ermənistandır, Azərbaycan yox və bu ölkələr arasında fərq qoyulmalıdır. Doğrudan da Rusiya bilmir ki, onun müttəfiqi kimdir və o münaqişəni necə həll etməlidir?" - deyib. Digər erməni ekspertlər də Kremlə üsyan püskürüb.

Ancaq Bakıda da Moskvaya etibar etmir, onun sülh təşəbbüsünə şübhə ilə yanaşırlar. Hesab olunur ki, Rusiya hücum mövqeyində olan Azərbaycanın əl-qolunu bağlamaqla düşmənə revanş imkanı yaradır, həmçinin rayonların 5+2 prinsipi ilə qaytarılması təşəbbüsü ilə əslində bizi tələyə salmaq istəyir. Bəs son hərbi əməliyyatlardan sonra diplomatik üstünlük hansı tərəfdədir, Bakıda, yoxa İrəvanda? Moskvanın özü əslində bu danışıqlarda kimin tərəfindədir?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a hazırkı situasiyanı şərh etdi:** "Son zamanlar belə bir fikir var ki, əgər Azərbaycan ordusu Dağlıq Qarabağ ətrafındakı rayonlardan bir neçəsini azad etmək istəsə, Rusiya bu prosesə qarışmayacaq, separatçılara dəstək verməyəcək. Yəni Rusiya Azərbaycana kiçik müharibə aparmağa mane olmayacaq. Bu, Rusiyaya ona görə lazımdır ki, Ermənistan hakimiyyətinə təzyiq etsin və sülh sazişi imzalansın və bununla Kreml Azərbaycanı da öz siyasi orbitinə cəlb edə bilsin. Çünki əgər Rusiya işğal altındakı torpaqların boşaldılmasına əsas dövlət olarsa, Azərbaycan Moskvanın istəyi əsasında Rusiyanın planlarında yer almalı olacaq. Rusiya rəsmiləri cəbhə bölgəsindəki gərginliyə görə Azərbaycanı tənqid etmədilər. Bu, İrəvanı narazı saldı, hətta Rusiyanın Gümrüdəki hərbi bazasındakı qüvvələrə "hazır olun" komandası verilmədi, hərbi baza adi günlərini yaşadı. Ermənistanda düşünürdülər ki, Rusiya Azərbaycan ordusunun irəliləməsinə birinci gündən imkan verməyəcək. Ancaq ilk günlər Rusiya proseslərə qarışmadı. Moskva prosesə qarışa da bilməzdi. Çünki Rusiya Ermənistanın təhlükəsizliyinə məsuliyyət daşıyır, Dağlıq Qarabağa yox".

**Siyasi şərhçi xatırlatdı ki, Rusiya sözdə də olsa, Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır:** "Bu mənada Rusiya üçün iki qırmızı xətt var. Birinci qırmızı xətt odur ki, Azərbaycan ordusu Ermənistan ərazisinə təhlükə yaratmasın. Azərbaycanın onsuz da belə bir planı yoxdur. Rusiya üçün ikinci qırmızı xətt odur ki, Azərbaycan ordusu Xankəndinə daxil olmasın. Azərbaycanın hazırkı mərhələdə belə bir planı da yoxdur. Əsas vəzifə Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasıdır. Bütün hallarda İlham Əliyev Kremlin istəyi ilə aprelin 6-da atəşkəsə razılaşdı. Azərbaycanın və Ermənistanın baş qərargahlar rəisləri Moskvaya dəvət olundular və Rusiya paytaxtında atəşkəs razılaşdırıldı. Bunun özü də bölgədəki nəzarətin Rusiyanın əlində olduğunu göstərdi".

**Bu yerdə ortaya sual çıxır: Azərbaycan ordusu döyüşləri bir müddət də davam etdirə bilərdimi? E.Şahinoğlu:** "Əlbəttə, Azərbaycan ordusu cəbhə bölgəsində xeyli irəli getsəydi və bir neçə rayonun azad olunması prosesini sürətləndirsəydi, İlham Əliyev Kremlin təzyiqinə baxmayaraq, müharibəni bir neçə gün də davam etdirəcəkdi. Ancaq cəbhədəki vəziyyəti prezidentdən və müdafiə naziri Zakir Həsənovdan yaxşı bilən yox idi. Ona görə də əgər prezident atəşkəsə razılaşdısa, o, bu qərarı həm cəbhədəki vəziyyətə, həm də gedən diplomatik danışıqlara görə verdi".

**Politoloqa görə, aydındır ki, Ermənistan danışıqlarda öz istəyi ilə Dağlıq Qarabağ ətrafındakı 5 rayonu azad etməsə, atəşkəs yenidən pozulacaq və Azərbaycan ordusu yenidən irəriləməyə çalışacaq:** "Hadisələrin necə inkişaf edəcəyi Moskvadan asılıdır. Əgər Kreml Cənubi Qafqazda müharibənin davamını istəmirsə, Ermənistan prezidenti Serj Sərkisyanı ilkin şərt irəli sürmədən 5 rayonu azad etməyə məcbur etməlidir. Əks halda, danışıqlar yenə uzanacaqsa, bunun davamının nə olacağı artıq İrəvana və Kremlə bəllidir. Rusiya Cənubi Qafqazdakı proseslərə ən çox təsiri olan dövlətdir. Rusiya Ermənistanın strateji müttəfiqi, Azərbaycanın isə tərəfdaşıdır. Azərbaycanla Ermənistan arasında ədalətli sülhün əldə olunması Rusiyanın maraqlarına cavab verməlidir".

**Ekspert deyir ki, bununla Rusiya iki məqsədinə nail ola bilər:** "Birinci məqsəd - Azərbaycanla Ermənistan arasında sülhə nail olan Rusiyanın bölgədəki rolu artacaq. İkinci məqsəd - Azərbaycan Rusiyanın istəyi ilə Gömrük İttifaqı ilə Avrasiya İqtisadi Birliyinə üzv olacaq. Moskvanın bu iki məqsədini reallaşdırmaq üçün Ermənistan prezidentinə təsir etməsi lazımdır. Ancaq bunun məhz belə olacağı hələ bəlli deyil. Rusiya xarici işlər naziri Sergey Lavrov aprelin 7-də Azərbaycana səfər etdi. Lavrov dedi ki, Moskvanın münaqişənin həlli ilə bağlı konkret təklifləri var. Belə bir təkliflərin olduğu əvvəl də bəlli idi. Ancaq təkliflərin konkret nədən ibarət olduğu açıqlanmadı. Lavrov Rusiyanın "TASS" agentliyinə verdiyi müsahibədə iki məqama toxundu. Birincisi, Lavrov dedi ki, 7 rayonun boşaldılması Dağlıq Qarabağın statusu ilə eyni vaxtda həll olunmalıdır. Hansı statusun və bu statusun hansı yolla həll olunacağı bəlli deyil. Əgər 7 rayonun boşaldılması əvəzinə Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək referendum tarixi sənəddə qeyd olunacaqsa, bu, Azərbaycanın maraqlarının əleyhinədir. Çünki həmin referendumla Dağlıq Qarabağın erməni əhalisi müstəqilliyə səs verəcək. Rəsmi Bakı isə işğal altındakı rayonların ilkin şərt irəli sürmədən azad olunmasını tələb edir. İkincisi, Lavrov dedi ki, cəbhə xəttindən snayperlərin geri çəkilməsini sürətləndirmək lazımdır".

**Ancaq E.Şahinoğlu əlavə etdi ki, bu, yeni təklif deyil:** "Bunu Minsk Qrupu həmsədrləri də zaman-zaman dilə gətirirlər. Bu təklif də Azərbaycanın maraqlarına cavab vermir. Çünki Azərbaycanın strategiyası belədir ki, torpaqlar işğaldan azad olunmayana qədər işğalçı qoşunlar təzyiq altında olmalıdır. Məsələ burasındadır ki, snayperlərin və ağır texnikanın geri çəkilməsi Ermənistan ordusunu rahatladacaq və atəşkəsin bu şəkildə qorunması status-kvonun uzanmasına gətirib çıxaracaq. Azərbaycan isə status-kvonu dəyişmək istəyir. Kremlin daha bir təklifi Dağlıq Qarabağda sülhməramlı qüvvələrinin yerləşdirilməsi ola bilər. Onsuz da münaqişənin hansısa mərhələsində sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsi reallaşa bilər. Sadəcə, bu qüvvələrin ancaq Rusiya hərbçilərindən formalaşdırılması Azərbaycan üçün təhlükəlidir. Rusiya sülhməramlıları Dağlıq Qarabağda yerləşdirilərsə, ordan bir daha çıxmayacaq və digər bölgələrdə olduğu kimi, separatçılara dəstək verəcəklər. Buna görə də sülməramlıların tərkibi müxtəlif dövlətlərin hərbçilərindən formalaşdırılmalı və Rusiyanın payı o biri ölkələrindən payından çox olmamalıdır. Sergey Lavrovdan sonra Rusiyanın baş naziri Dmitri Medvedyev də Bakıya gəldi. Əslində bu səfər əvvəlcədən planlaşdırılmamışdı. Medvedyev İrəvandan dərhal sonra ona görə Bakıya gəldi ki, Rusiyanın tərəfsizliyi şübhə doğurmasın. Medvedyev prezident olduğu illərdə Azərbaycan və Ermənistan prezidentlərini 10 dəfə görüşdürmüşdü. O zaman bu görüşlərdən nəticə olmadı. Görünür, Medvedyev o illərdəki təşəbbüslərini yenidən aktuallaşdırmaq istəyir. Aydındır ki, Medvedyev prezident Vladimir Putinin təlimatıyla hərəkət edir. Buna baxmayaraq, Medvedyevin Bakını tərk etdikdən sonra Rusiyanın televiziya kanalına verdiyi müsahibədə "qan tökülməkdənsə, cəbhə bölgəsindəki indiki status-kvonun davamı yaxşıdır" sözləri ondan xəbər verir ki, Moskva münaqişənin ədalətli həllinə hələ hazır deyil. Deməli, biz də doğru bildiyimizi etməliyik. Rusiyanın təşəbbüsü ilə atəşkəs razılaşmasından və rusiyalı rəsmilərin Bakıya çoxsaylı telefon zəngləri və səfərlərindən sonra cəmiyyətin bir hissəsində belə bir təəssürat yaranıb ki, bölgədə Kremlin istəyi xaricində hərəkət etmək, hətta hansısa rayonu azad etmək çətindir. Ancaq Kremlin Cənubi Qafqazda və Azərbaycandakı maraqlarını şişirdənlər onu da anlamalıdırlar ki, başqa iki oyunçu - ABŞ və Türkiyə illərdir Azərbaycanla siyasi, iqtisadi və təhlükəsizlik sahəsindəki əlaqələrini və siyasi yatırımlarını ona görə genişləndirməyib ki, Dağlıq Qarabağ münaqişəsinin yarımçıq həlli adı altında Azərbaycanın Moskvanın nəzarətinə keçməsinə seyrçi qalsınlar".



# Avtoritarizmin sonu nə vaxt gələcək?

Hüseynbala SƏLİMOV

**Hakimiyyət niyə Rusiyanı eşidir, niyə görə hətta Ermənistanla da hesablaşır, amma yerli müxalifətlə danışıqlara getmir? Güman edirik ki, bir-iki il siyasi fəaliyyət stajı olan adam bu sualı verməz, o səbəbdən ki, onun cavabı aydındır...**

Biz də bu cavabı burada təkrarlamayacağıq. Ən azı ona görə ki, cavab aydındır və o, elə sualın özündə ifadə olunub...

Ondansa çoxdandır keçirdiyim hissi sizinlə bölüşmək istəyirəm. Demək olar ki, hər gün yazıram, bəzən bir gündə bir neçə yazı yazmalı oluram.

Özüm də fikir vermişəm ki, iki mövzuda yazmaq mənim üçün əsl əzabdır: bunlardan biri Minsk Qrupu, digərisə bizim müxalifətdir...

Elə insanlar da bu mövzularda yazılanları oxumurlar. Üstəlik, Minsk Qrupu müəyyən səbəblərdən hələ üzdə qalmaqda davam edir: gəlib-gedir, kimlərləsə görüşür və hər dəfə də özlərinin çeynənmiş bəyanatlarını təkrarlayırlar...

Müxalifət haqqındasa bunu da demək olmur, sanki qeybə çəkiliblər, bir hissəsi tamamilə sosial şəbəkələrə köç edib, bir hissəsi də özünün sakit həyatını yaşayır. Olsun. Kiminsə sakitliyini, rahatlığını pozmaq istəmirik...

Sadəcə, ABŞ-da keçirilən son qlobal nüvə sammiti ərəfəsində müəyyən ümidlər vardı. Siyasi məhbusların bir hissəsi buraxıldı, digərlərinin də yaxın vaxtlarda azad ediləcəyinə ümidlər yarandı.

Amma nüvə sammiti bitər-bitməz Qarabağda irimiqyaslı hərbi əməliyyatlar başladı.

İndi atəşkəsdir. Düzdür, çox kövrək atəşkəsdir, hər an pozula bilər, amma adı hər halda, atəşkəsdir...

Ölkə hələ də döyüş və cəbhə ovqatı ilə yaşayır. Belə vaxtda başqa mövzudan yazmağa adamın heç özünün də ürəyi gəlmir...

Amma nüvə sammiti ərəfəsində çox optimist proqnozlar oldu, dedilər ki, çox böyük dəyişikliklər baş verəcək. Demirik ki, inandıq. Amma inanmamaq üçün də əlimizdə tutarlı əsaslar yox idi...

Fəqət, elə o vaxt özümüzə sual verdik: görən, ciddi dəyişikliklər deyiləndə nəyi nəzərdə tuturlar?

Siyasi məhbusların azad edilməsini başa düşürəm. Fəqət, bu, hələ hər şey demək deyil, xüsusən də ona görə ki, bu ölkədə bir tərəfdən kimisə buraxır və azad edir, o biri tərəfdən də tuturlar...

Ona görə də buna siyasi islahat deyə bilmirəm. İslahat odur ki, hansısa dönməz nəticələrə gətirib çıxarır. Amma bizdə belə deyil, "maketçilik"dən qurtula bilmirik ki, bilmirik...

Əsl islahat siyasi sistemin özündən başlamalıdır. Avtoritarizm durğunluq kimi bir şeydir, qaldıqca lap bataqlıq qoxuyur...

Avtoritar idarəçilikdən nə qədər siyasi və iqtisadi divident götürmək mümkünsə, götürmüşük. Bundan sonra, ola bilsin, hələ bir az sonra tamam əks proses başlayacaq - siyasi sistemdə çürümə, geriləmə hiss olunacaq, bizim öyündüyümüz çox şeylərdə deqradasiya duyulacaq...

Bunu adi bir yazarın "peyğəmbərliyi" kimi qəbul etməyin. Demirəm ki, siyasətin fundamental qanunları var. Yox, amma təcrübə var. Biz totalitar bir keçmişdən çıxmışdıq. Ona görə də avtoritarizm belə bir ara irəliyə doğru bir sıçrayış idi və müəyyən müsbət nəticələr verməli idi, verdi də...

Amma hər şeyin bir başlanğıcı olduğu kimi sonu da olur. Bu mənada avtoritar idarəçilik də istisna deyil. Onun da finalı çatacaq...

Mən indi son döyüş əməliyyatlarından sonra insanlardakı ruh yüksəkliyinə baxıram. Görürsən ki, insanlar on illərin sınıqlığından, əzginliyindən, başıaşağı olmaqdan qurtulmaq istəyirlər. Bəli, bu millət özünü təsdiq etmək, qalib olmaq istəyir...

Amma bu, birtərəfli proses deyil. Bu gün heç nədən çəkinmədən düşmənin düz üstünə yeriyən əsgərin sabah mülki həyatda bir sərsəm, rüşvətxor məmurun qarşısında boynunu bükərək dayanacağını təsəvvür edə bilmirəm və əminəm ki, belə olmayacaq...

Bəzən mənə hətta elə gəlir ki, həmin məmurların bir hissəsi - rüşvətxor və sərsəm məmurlar buna görə bizim axıra qədər qalib olmağımızı, torpaqlarımızı düşmən tapdağından azad etməyimizi istəmirlər, o səbəbdən ki, qorxurlar! Bəli, qalib milləti idarə edə bilməyəcəklərindən, daha doğrusu, indiki kimi idarə edə bilməyəcəklərindən ehtiyat edirlər...

Amma bu prosesin qarşısını nə vaxta qədər ala biləcəklər? Düşünmürəm ki, çox davam etmiş olsun...

Ən azı adi məntiq bunu deyir ki, qalib olacağımız gün çox uzaqda deyil. Gün gələcək ki, başlarımızı qaldıra, hamının gözünə içinə dik baxa biləcəyik...

**Ötən həftə Azərbaycan Silahlı Qüvvələri Dağlıq Qarabağ ətrafında işğal olunmuş torpaqlarımızda apardığı əməliyyatlarda Ermənistan ordusuna ağır zərbə vurdu. Azərbaycan ordusu torpaqlarımızı azad etmək üçün apardığı döyüşlərdə şəhidlər verdi, amma işğalçı ordu daha çox əsgər və zabitini itirdi ki, bu da təkcə Ermənistanı deyil, bütün dünya erməniliyini yasa boğdu.**

# "Ermənilər kürdləri tarixən düşmən hesab edir"

## Azərbaycan Kürdləri Birliyindən dünya kürdlərinə çağırış: "Ermənilərin yalanlarına heç kim uymasın"

Artıq bir neçə gündür ki, dünya erməniləri Azərbaycana qarşı hərəkətə keçiblər. Fransanın paytaxtı Parisdə azərbaycanlıların "Ermənistan, işğala son qoy, Qarabağdan çıx" şüarları ilə keçirdiyi dinc aksiyaya bir qrup erməni və əllərində PKK bayrağı olan gənclər hücum ediblər. Başıpozuq dəstə azərbaycanlılara daş atıb.

Avropanın digər ölkələrində, əsasən Almaniyada isə Ermənistan rəhbərliyinin göstərişi ilə Avropada məskunlaşmış erməni və PKK təmayüllü kürdlərin Azərbaycanla savaşa hazırlandığı, onlardan ibarət muzdluların toplandığı barədə xəbərlər yayılıb. Xəbərlərdə deyilir ki, Qarabağın səmtini belə bilməyən həmin muzdluların əsasən Rusiya üzərindən Ermənistana, oradan işğal zonasına göndəriləcəyi planlaşdırılır.

Qeyd edək ki, Türkiyədə fəaliyyət göstərən və kürdlərin partiyası kimi tanınan Xalqların Demokratik Partiyasının (HDP) həmsədri Səlahəddin Dəmirtaş da ermənilərin haqlı çıxaran mövqe ortaya qoymuşdu. Dəmirtaş Qarabağda cəbhə xəttində yaranan gərginliyə münasibət bildirərkən Türkiyəni münaqişəni körükləməkdə ittiham etdi, "Qarabağ muxtar bölgəydi, oradakı insanlar necə istəyirlərsə, elə yaşamalıdırlar. Onların istəklərinə hörmət edilməlidir" deyib.

Məhz Dəmirtaşın belə bir mövqe ortaya qoymasından sonra dünyanın müxtəlif ölkələrində ermənilərin PKKyönümlü kürdlərlə hərəkət etməyə başladığı haqda informasiyalar yayılmağa başladı.

Qeyd edək ki, Azərbaycanın da kürd millətindən olan vətəndaşları var. Azərbaycanın ərazi bütövlüyü uğrunda savaşda kürdlər azərbaycanlılarla çiyin-çiyinə erməni işğalçılarına qarşı döyüşüblər, çoxlu ayda şəhid veriblər.



Tahir Süleyman

**Azərbaycan Kürdləri İctimai Birliyinin sədri və kürd dilində çap edilən "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ermənilər əsrlər boyu qardaş kimi birlikdə yaşayan azərbaycanlılarla kürdlərin arasını vurmağa çalışır:** "Parisdə azərbaycanlıların keçirdiyi dinc aksiyaya hücum edənlərin sırasında kürdlərin olduğuna mən inanmıram. Əlində PKK bayraqları tutub hücum edən şəxslər də ermənilərdir. Bu çirkin təxribatı Fransadakı erməni diasporası təşkil edib. Erməni gənclərin əlinə PKK bayrağını verib ora göndəriblər ki, dünyanın hər yerində azərbaycanlılarla kürdlərin münasibətlərini pozsunlar. Ermənilər həmişə cəhd edir ki, azərbaycanlı-kürd düşmənçiliyi yaransın. Almaniyada və başqa Avropa ölkələrində ermənilərin muzdlular toplamağa başlaması barədə deyilənlərə gəlincə, ermənilər həmişə Azərbaycana qarşı muzdlu terrorçulardan istifadə ediblər. İndi də bunu etmələri gözlənilənir. Mən buradan dünya kürdlərinə müraciət edirəm. Ola bilər ki, içinizdən kimlərsə erməni təbliğatına, erməni yalanlarına inanar, onların dediyi ilə hərəkət etmək istəyər, qətiyyən bunu etməyin, ermənilərin yalanlarına heç kim uymasın. Ermənilər əslində kürdlərlə bütün tarix boyu düşmənçilik ediblər. Ermənilər yüz minlərlə azərbaycanlı və kürdləri Ermənistan adlandırdıqları ərazilərdən dəfələrə sürgün ediblər. Bu zaman azərbaycanlılarla yanaşı kürdlərin də qətliamı həyata keçirilib. Bu gün Qazaxıstandan tutmuş Avropanın müxtəlif ölkələrinə qədər kürdlərin səpələnmiş halda yaşaması məhz ermənilərin zaman-zaman bizə qarşı həyata keçirdiyi deportasiya ilə əlaqəlidir. Erməni xalqının ideoloqu Zori Balayan yazılarının birində qeyd edir ki, kürdlər ölümə məhkum edilməlidir. Ermənilərin kürdlərə əsl münasibəti bax budur. Odur ki, bütün kürdləri və azərbaycanlıları erməni fitnəsinə uymamağa çağırıram".

**T.Süleyman onu da bildirdi ki, Qarabağı işğal edən ermənilər bu bölgədə yaşayan kürdləri də yurdundan didərgin salıblar, bu zaman azərbaycanlılarla yanaşı, kürdləri də kütləvi qətl ediblər:** "Dünya kürdləri bunu da unutmamalıdır. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yüzlərlə kürd şəhid olub. Ötən həftə-aprelin 2-də və sonrakı günlərdə ermənilərlə döyüşdə şəhid olan hərbçilərin sırasında kürdlər də var. Mən bu, günlərdə onların yas mərasimində də iştirak etmişəm. Şərur rayonu Aşağı Yaycı kəndində 1996-cı ildə dünyaya gələn qəhrəman kürd oğlu Xaliq Əzizzadə Qarabağda bir neçə gün öncə-aprelin 4-də ermənilərin hücumunu dəf edərkən qəhrəmanlılqa şəhid olub".

**O ki qaldı HDP lideri Səlahəddin Dəmirtaşın yuxarıda xatırlatdığımız mövqeyinə, T.Süleyman dedi ki, onun mövqeyini düzgün hesab etmir:** "Biz həm təşkilat olaraq, həm də şəxsən mən HDP həmsədrinin mövqeyinə qəti etiraz edirəm".

**T.Süleyman onu da vurğuladı ki, Türkiyədə və başqa ölkələrdə hansısa kürdlərin reallıqları dəqiq bilməməsində özümüzün də müəyyən qədər günahımız var:** "Biz gərək tez-tez Azərbaycan dövləti tərəfindən, Azərbaycan diasporası ilə əməli iş apararaq, Azərbaycanda yaşayan kürd və azərbaycanlı jurnalistləri ilə, ziyalıları ilə birgə Türkiyənin, İraqın kürdlər yaşayan bölgələrinə gedək. Azərbaycan həqiqətləri bu yolla kürdlər arasında təbliğ edilsin. Ermənilərin XIX əsrdən indiyə qədər başımıza gətirdikləri facieləri, müsibətlər çatdırılsın.

Biz xaricdə yaşayan kürd xalqına çatdırmalıyıq ki, ermənilər hələ 1897-ci ildə, Türkiyənin Xanasor əyalətində bir gecədə 40 min müsəlman kürdünü qətlə yetirib. Şəxsən mənim babalarım ermənilərin işğalçı siyasətinin ucbatından 17 dəfə doğma yurd-yuvalarından didərgin salınıblar. Son dəfə Qarabağ hadisələri ilə bağlı on minlərlə soydaşlarımla birlikdə mən torpağımdan didərgin düşmüşəm".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# "Şəhid ailələrinə ödənilən təzminat və güzəştlər artırılsın"

## Vahid Əhmədov: "Bu məbləği 20-30 min manata qədər qaldırmaq olar"

**Şəhid ailələrinə və müharibə əlillərinə verilən təzminatın və güzəştlərin artırılmasına ehtiyac var. Əksər ictimaiyyət nümayəndələri bu fikirdədir ki, hazırda Azərbaycanda əsgərlərin şəhid olması müqabilində ödənilən təzminat övladını və ailə başçısını itirən ailənin ehtiyaclarının ödənilməsi üçün yetərli deyil.**

Belə ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna görə, hərbi qulluqçunun həyatı dövlət tərəfindən 11 000 manat məbləğində sığorta edilir. Sığorta haqqı sığorta məbləğinin 1 faizi miqdarında müəyyən edilir - yəni 110 manat. Şəhid olan əsgər və zabitlər arasında kompensasiyanın məbləği onların daşıdığı rütbəyə görə dəyişmir,həlak olan əsgərlə zabit ailəsi dövlət tərəfindən eyni məbləğdə kompensasiya alır.

Hərbiçi yaralandıqda, əlillik dərəcəsi aldıqda ona qanunamüvafiq sığorta haqqı ödənilir. I qrup əlilliyə görə 80 faiz, II qrup əlilliyə görə 60 faiz, III qrup əlilliyə görə 40 faiz; sığorta olunan həqiqi hərbi xidmətdə olduğu zaman, bu maddənin a, b və ç bəndlərində nəzərdə tutulmuş hallarla nəticələnməyən: ağır xəsarət aldıqda 25 faiz; yüngül xəsarət aldıqda 5 faiz ödənir. Konkret olaraq, əgər hərbi qulluqçu 1-ci qrup əlil olarsa, 8 min manat, 2-ci qrup 6 600 manat, 3-cü qrup 4 400 manat alır.

Xəsarət aldığı halda isə hərbiyə yararsız tərxis olanda 2 700 manat verilir. Prokurorluq və daxili işlər orqanlarında çalışanlarda sığorta haqqı nisbətən yüksəkdir. Ölüm halında onlara 5 illik əmək haqqı, yemək, paltar pulu hesablanır, bu isə 17-18 min manat civarındadır.

Dünya təcrübəsi ilə müqayisədə Azərbaycanda şəhid ailələrinə ödənilən təzminatı az hesab etmək olar. Məsələn, hər gün onlarla şəhid verən qardaş Türkiyədə hər bir dövlət qurumunun şəhid ailəsi qarşısında məsuliyyəti müəyyən edilib. Belə ki, Türkiyədə şəhid ailələri və qazilərə tanınan 62 maddədən ibarət güzəştlər toplusu mövcuddur. Təkcə 13 maddə şəhid varislərinə verilən maddi haqlardır. Şəhid varislərinə nağd təzminat 28 785 tl-dir, bu da hazırkı məzənnə ilə 15440 manat edir. TSK Dayanışma Vakfı yardımı 7 575 tl (4014 manat) və 19 695 tl (10438 manat) yardım edir. Tütün Beyiye mükafatı 1 212 tl (642 manat), təqaüd mükafatı 32 292 tl (17115 manat), toplu mənzil krediti təxminən 10 min manat, kirayə haqqının dövlət tərəfindən ödənilməsi və onlarla kiçik təqaüdlər.



Ukraynada isə həlak olan hərbiçinin ailəsinə 609 000 Ukrayna qrivnası verilir ki, bu da 35 931 manata bərabərdir. Bundan əlavə, şəhid ailələri dövlətin hər cür imtiyazlarından faydalana bilirlər.

Düşmən ölkə Ermənistanda isə təzminat məsələsi ilə bağlı vəziyyət pisdir. Məlumata görə, 2012-ci ildə gedən xəbərlərdə xidmət zamanı ölən hərbiçilərin ailələrinə 30 min dram verilir. Bu, 4229.87 rubl və ya 94 manat 75 qəpikdir.

Ermənistan istisna olmaqla, digər ölkələrin təcrübəsi göstərir ki, Azərbaycanda da şəhidlərin ailələrinə verilən təzminatların, edilən güzəştlərin artırılmasına ehtiyac var.

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da bu fikirdədir. Parlament üzvü devalvasiyadan sonra 11 min manat məbləğin ailə ehtiyaclarının ödənilməsi üçün bir qədər yetərsiz olduğunu bildirdi:** "Bu məsələyə mən də baxmışam. Şəhid olanların ailələrinə verilən təzminat bir qədər azdır. Bu məsələyə yenidən baxmaq lazımdır. Çünki bunlar hamısı qanunla tənzimlənir. Vətən uğrunda canından keçən şəhidlərimizin ailələrinə hərtərəfli qayğı göstərmək, onların maddi təminatını ödəmək zəruridir. Xüsusən onların ailə üzvlərinə, övladlarına, valideynlərinə yardım etmək lazımdır. Bilirsiniz ki, sonuncu hadisələrdə də çoxlu sayda şəhidimiz oldu. Ona görə də bu məsələyə yenidən baxılmasına ehtiyac var. Onların həm mənzillə təminatı, həm təhsil problemləri və digər məsələlər də diqqətdə olmalıdır. İndi şəhid ailələrinə 11 min manat təzminat verilir. Bu pul əvvəlki vaxtlar üçün bəlkə də yaxşı idi, ancaq son devalvasiyadan sonra bu vəsait o qədər də böyük vəsait deyil. Bu məbləği 20-30 min manata qədər qaldırmaq olar. Mən təkcə təzminat məsələsinə yox, bununla bağlı bütün məsələlərə kompleks şəkildə baxmağın tərəfdarıyam".

**Hərbi ekspert Üzeyir Cəfərov da "Yeni Müsavat"a açıqlamasında sözügedən qanuna yenidən baxılmasını və şəhidlərin, müharibə əlillərinin ailələrinə əlavə güzəştlərin edilməsini vacib sayır:** "Azərbaycanda indi şəhid olan hərbi qulluqçunun ailəsinə 11 min manat pul verilir. Ondan əlavə, şəhidin ailəsinə 200 manat prezident təqaüdü verilir. Bundan başqa, əgər şəhidin yaşlı atası-anası varsa, onların pensiyasının üzərinə müəyyən əlavələr olur. Bu da təxminən 160 manat civarındadır. Əgər hər iki valideyn pensiya alırsa, o məbləğ ikiyə bölünərək hər birinin pensiyasına əlavə olunur.

İndiki vaxtda devalvasiya gedib və manat dəyərdən düşüb. Biz əvvəllər də bu məsələni qaldırmışdıq ki, dövlət müharibə veteranlarına yalnız 45 manat müavinət verir. Bizim rahat kabinetlərdə oturan bəzi məmurlarımız isə sonuncu dəfə gördülər ki, Azərbaycan əsgəri bütün çətinliklərə baxmayaraq, bu ölkənin vuran əli, görən gözü, eşidən qulağıdır. Çox diplomatların görə bilmədiyi işi Azərbaycan əsgəri gördü. Bahalı maşınlarda, lüks kabinetlərdə oturan məmurlar isə başa düşmək istəmirlər ki, vətən uğrunda canını fəda etmiş şəxslər özündən sonra geriyə baxmamalıdır ki, ailəsi mənzillə təmin olunubmu, övladları məktəbə gedəndə ehtiyacları təmin olunacaqmı? Düzdür, müəyyən yardımlar olunur. Ancaq bu, Türkiyə təcrübəsində olduğu kimi, qanuni şəkildə olsa, daha yaxşı olar.

**Ekspert təklif etdi ki, şəhid və müharibə əlillərinin ailələri bütövlükdə kommunal xərclərdən azad olunsun:** "Bizə bəzən deyirlər ki, indi bazar iqtisadiyyatıdır və "Azəriqaz", "Azərsu", "Azərişıq" kommersiya qurumlarıdır. Ancaq biz də deyirik ki, həmin kommersiya təşkilatlarını ön cəbhədə düşməndən qoruyan bu əsgərlər deyilmi? Və ya əlil olmuş müharibə veteranları deyilmi? Ancaq bu məsələni müsbətə doğru həll eləmək istəmirlər. Dövlət atasız qalan şəhid balalarının xərclərini bütövlükdə öz üzərinə götürməlidir. Onun özü də cəmiyyət üçün bir örnək olar. Cəbhəyə gedən gənc əmin olar ki, əgər o şəhid olsa, ailəsi hər hansı çətinliklə üzləşməyəcək. Hesab edirəm ki, qanunvericiliyə yenidən baxılmalıdır və vətən uğrunda döyüşlərdə şəhid olan, yaralanan, əlil olan şəxs dövlətin ən yüksək imtiyazlarından yararlanmalıdır. Hörmətli millət vəkillərimiz bununla bağlı dünya təcrübəsini öyrənib, müsbət nümunələrdən faydalansalar yəqin ki, ortalığa yaxşı bir qanun çıxara bilərlər.

Bir tərəfdən, mövcud qanunlar yaxşı işləməlidir, digər tərəfdən, həmin qanunlar təkmilləşdirilməlidir".

❑ **Nərgiz LİFTİYEVA**

---

# Xüsusi istedadlı gənclər və evin tək övladları hərbi xidmətdən saxlansınmı?

## Zahid Oruc: "Ordunu yalnız orta və aşağı savadlı insanlardan ibarət təsəvvür etmək yanlış olardı..."



**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən son 4 günlük döyüşlərdə verdiyimiz şəhidlər sırasında xüsusi istedadlı, yüksək bal toplamış ali təhsilli gənclərimiz, həmçinin evin tək oğul övladı olanlar da vardı. Bu, zaman-zaman müzakirəyə çıxarılan bir məsələni - yüksək təhsilli və evin tək övladı olan gənclərin hərbi xidmətə çağırılmaması məsələsini yenidən gündəmə gətirdi. Maraqlıdır, sadaladığımız məsələ ilə bağlı qanunda hansısa istisnalar varmı, ola bilərmi?**

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvü Zahid Oruc** məsələ ilə bağlı danışarkən ordunun yalnız orta və aşağı savadlı insanlardan ibarət təsəvvür etməyin yanlış olduğunu dedi: "Son dörd günlük müharibə Azərbaycanın istər elm-təhsil, istərsə də ictimai həyat və dövlət quruculuğu sahələrinə özünün daha köklü yeniliklərini edəcək. Bu da ondan ibarətdir ki, Azərbaycan qazandığı bu uğurlarda həm ordu quruculuğunun daha da möhkəmləndirilməsi tədbirləri, həm də onun arxa cəbhəsindəki vətəndaşların görə biləcəyi işlərin bütün miqyası ilə yenidən dərki baş verdi. Ordunun daha professional formalaşması kimlərdən ibarət qurulsun məsələsi çox mühüm bir məsələ kimi yenidən qarşıya çıxıb.

Əslində hazırkı modern ordular mühüm yeni texnoloji qurğulardan, işin koordinasiyasını bilən, təlimləri dayandıqları coğrafiya üzrə o bölgələrin dislokasiyasını görən və bunu professionallıqla taktiki işlərə gətirməyi bacaran insanlardan ibarət olmalıdır. Yəni ordunu yalnız orta və aşağı savadlı insanlardan ibarət təsəvvür etmək çox yanlış olardı. Bu gün dünyanın özündə qeyd etdiyimiz nisbət çox fərqlidir. Bəzi ordularda hətta əsgər və çavuş heyətinin çox aşağı savad vəziyyəti var. Yalnız zabitlərin professionallıqlarından biz danışa bilərik. Bəzilərində isə mənzərə fərqlidir. Məsələn, İsrail ordusunda evin bir övladı da olsa, ən yüksək elmi istedada da malik olsa, onu ordu sıralarında görmək mümkündür.

Müdafiə naziri Zakir Həsənov özünün bütün professionallığına rəğmən, dəfələrlə Azərbaycanın elm-təhsil təmsilçiləri ilə görüşərək qabiliyyətli insanların ordu quruculuğu prosesinə cəlb olunmasını istəyib. Çünki biz bu gün nanotexnologiyaların, həddən artıq müasir elektronik sistemlərin ordudakı avadanlıqlara, silaha, tanka, topa tətbiqinin şahidiyik. Bu gün ordu elm və təhsilin ayrılmaz bir sahədir. Elm təhlükəsizliyin mühüm bir komponentidir. Bu sahədə də nə qədər çox istedadlı insanlarımız varsa, onlar da savaş meydanında ermənilərlə vuruşurlar".

**Z.Oruc bu gün hər bir azərbaycanlının özünü erməni ilə mübarizə mühitində hiss etdiyini dedi:** "Bu gün müəllim erməni müəllimlə, filosofumuz erməni filosofu ilə vuruşur. Sadəcə, 100-150 ballıq akademiya yetirmələri bizim arzuladığımız professional manevri, ən ağır əməliyyatlarda çaşmamaq, özünü itirməmək, düşmənə həlledici nöqtələrdən zərbə vurmağı bacarmaq çox önəmlidir. Burada da kifayət qədər elmli insanlar tələb olunur. İndi ermənilər bizim xüsusi qrupdan danışırlar ki, onlar həmən qoşunların arxa cəbhəsinə keçiblər və oradan ermənilərə zərbə endiriblər. Amma hansısa kəsimin sonradan alınmış Talış yüksəkliklərində öz qazdıqları səngərlərə yerləşən, tutan azərbaycanlılar orda zərbə vura biliblər. Yəni ilkin raundda bizim qüvvələrimiz onları çox professionallıqla döyüş meydanında məğlub ediblər. Çünki onlar uzun müddətdir ki, müxtəlif təlimat proqramlarından keçiblər və ordumuzun əsas zərbə qüvvələrindən biri idilər. İndiki dövrdə bu məsələni qanunvericiliyə gətirmək 700 ballıq tələbələri, yaxud da evin tək övladı olan uşaqlarla bağlı qanunvericiliyimizdə bəzi dəyişikliklərin irəli sürülməsi elə də asan deyil. 4 günlük müharibə dövründə parlament üzvlərinin çoxu ordu işində nə kimi köməyimiz ola bilər deyə, düşünürdü. Tankın, topun yerinin dəyişdirilməsində, silahın götürülməsində, kiminsə atəş açmasında bizim də rolumuz ola bilərsə, bunu edək deyə, düşünürdük. Çünki nə qədər qlobal düşünürsən düşün, sən şərqlisən, azərbaycanlısan və torpaq sənin varlığının ayrılmaz bir hissəsidir. Ona görə də düşünürəm ki, hamımız əgər bir şəhidlik yolundan danışırıqsa, elmi bilikləri yüksək olmayan, amma hərbi səriştəsi qaydasında olan və lazımi tapşırıqları yerinə yetirməyi bacaran hər bir kəs bizim üçün önəmlidir. Son şəhidlərimizin içərisində cəmiyyətimizin bütün təbəqələrinin nümayəndələri vardı".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# Bakıda ər boşanmaq istəyən arvadına küçədə 8 bıçaq vurdu



Bakının Nəsimi rayonu ərazisində, "28 May" metro stansiyasının yaxınlığında naməlum şəxs bir qadına yaxınlaşaraq, onun bədəninin müxtəlif nahiyələrinə bıçaqla zərbələr endirib. Qadın dərhal ətrafdakı insanların köməkliyi ilə dəmiryol xəstəxanasına çatdırılıb.

Musavat.com-un məlumatına görə, bıçaqlanan şəxs 1990-cı il təvəllüdlü Bayraməliyeva Tünzalə Cəfər qızıdır. 8 bıçaq zərbəsi alan qadının həyatını həkimlər xilas edə bilib.

Əməkdaşımızın əldə etdiyi məlumata görə, 26 yaşlı Tünzalə Bayraməliyevanı həyat yoldaşı 37 yaşlı Bayraməliyev Oqtay Ramiz oğlu bıçaqlayıb.

Hadisəyə tərəflər arasındakı ailə münaqişəsi üzündən qadının boşanmaq üçün məhkəməyə müraciət etməsi səbəb olub. Bunu qəbul edə bilməyən ər həyat yoldaşını qətlə yetirmək istəyib.

Oqtay Bayraməliyev hadisəni törətdikdən sonra Nəsimi Rayon Polis İdarəsinə gedərək, könüllü təslim olub.

Qeyd edək ki, Oqtay Bayraməliyev Tünzalə Bayraməliyevanın ikinci həyat yoldaşıdır. Onların birgə nikahlarından övladları olmasa da, Tünzalə Bayraməliyevanın ilk evliliyindən iki övladı var.

Qadının yaxınlarının sözlərinə görə, Oqtay Bayraməliyev həyat yoldaşını dəfələrlə bıçaqla hədələyib.

Faktla bağlı Nəsimi Rayon Polis İdarəsində cinayət işi başlanıb, araşdırma aparılır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Gömrükçülər vətəndaşın ayaqqabısının dabanlarında heroin aşkar edib

**Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İran İslam Respublikasından Azərbaycana piyada gələn Azərbaycan vətəndaşının üzərində narkotik vasitə aşkar edilib. Bu barədə "Report"a DGK-nın mətbuat xidmətindən məlumat verilib.**

Məlumatda deyilir ki, həmin vətəndaşın ayaqqabısı rentgen qurğusunda yoxlanılarkən monitorda ayaqqabının hər bir tayının dabanında şübhəli predmetin təsviri görünüb.

Təkrar baxış zamanı ayaqqabının dabanlarının sonradan oyularaq hazırlanmış oyuqlarında cəmi 2 ədəd bükümdə, ümumi xalis çəkisi 91,396 qram olan narkotik vasitə - heroin aşkar olunaraq götürülüb.

Faktla bağlı araşdırma aparılır.

## Yevlax sakini narkotikdən zəhərlənib öldü

**Yevlaxda narkotikdən zəhərlənən şəxs ölüb. "Report" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin rəsmi saytı məlumat yayıb. Belə ki, aprelin 10-da Yevlax rayonunda yaşayan, əvvəllər məhkum olunan Yusif Paşayev narkotik vasitəsindən zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb. Faktla bağlı araşdırma aparılır.**

## Ağdaşda avtomobil aşıb, ata və iki oğlu ağır xəsarət alıb

**Ağdaş rayonunda bir ailənin 3 üzvünün ağır xəsarət alması ilə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə aprelin 11-də səhər saat 7:00 radələrində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 235-ci kilometrliyində, Ağdaşın Xosrov kəndi ərazisində qeydə alınıb.**

Mingəçevir şəhər sakini 1964-cü il təvəllüdlü Həsənov Nurəddin Soltan oğlunun idarə etdiyi "VAZ 2107" markalı minik avtomobili yoldan çıxaraq çökək əraziyə aşıb. Hadisə zamanı sürücü Nurəddin Həsənov və iki oğlu, 1992-ci il təvəllüdlü Nurlan Həsənov, 1990-cı il təvəllüdlü Müşfiq Həsənov ağır bədən xəsarətləri ilə Ağdaş Mərkəzi-rayon Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

### Elan

**Gədəbəy rayonunun B.Qaramurad sovetliyinin Toplar kənd sakini Səfərov Azər Oktay oğlunun mərhum atası Səfərov Oktay Əziz oğlunun adına olan JN 0346 KOD 50507018 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

### Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmail.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Azərbaycanda olan narkomanların sayı açıqlandı

**Ölkədə narkomaniya ilə mübarizə gücləndirilib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, hazırda respublika üzrə 31.12.2015-ci il tarixinə qeydiyyatda olan narkomanların ümumi sayı 28555 (o cümlədən opioidlərin qəbulu nəticəsində - 20036 nəfər, kannabioidlərin qəbulu nəticəsində - 8519 nəfər), dispanser qeydiyyatında olanlar - 23153 nəfər, profilaktik - 5402 nəfər, anonim müalicə alanlar - 583 nəfər, toksikoman 158 nəfər təşkil edib. Narkotik istifadəçilərinin 592 nəfəri qadındır.**

2015-ci il ərzində 2017 narkoman qeydiyyata götürülüb *(o cümlədən opioidlərin qəbulu nəticəsində - 1224 nəfər, kannabioidlərin qəbulu nəticəsində - 793 nəfər),* dispanser qeydiyyatında olanlar - 1432 nəfər, profilaktik - 585 nəfər təşkil edib.

Nazirlər Kabinetinin 26 yanvar 2006-cı il tarixli qərarı ilə ölkəmizdə "Narkomaniya xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtləri və qaydaları" təsdiq edilib. Bu proqramlar inyeksion yolla narkotik maddələr istifadə edənlər arasında İİV/QİÇS-in yayılmasının qarşısını almağa yönəlib. Son üç il ərzində Metadonla əvəzedici müalicə proqramı üzrə fəaliyyət göstərən iki məntəqədə 424 xəstə müalicə alıb.

2015-ci ildə 2833 nəfər könüllü müalicə almaq üçün mərkəzə müraciət edib.

2015-ci ildə Ədliyyə Nazirliyi tərəfindən Respublika Narkoloji Mərkəzinə göndərilən şəxslərin məhkəmə-narkoloji tibbi yoxlaması təmin olunub. Respublika üzrə ötən il ərzində ekspertizadan cəmi 3111 nəfər keçib. Onlardan 1577 nəfərə məcburi müalicə təyin olunub.

Mülki işlə bağlı narkoloji tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin ümumi sayı 13 nəfərdir.

Səhiyyə Nazirliyinin "Respublika Narkoloji Mərkəzində insan immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsinin yaradılması barədə" 22/I-ŞH saylı 16.07.2011-ci il tarixli əmrinə əsasən, 14.07.2011-ci il tarixdən Respublika Narkoloji Mərkəzində insanın immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsi yaradılıb. Bundan əlavə, Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir şəhər narkoloji dispanserləri və bir sıra mərkəzi rayon xəstəxanalarının narkoloji kabinetlərinin nəzdində ümumilikdə 48 könüllü məsləhət və müayinə məntəqəsi təşkil edilib. 2015-ci il ərzində məntəqələrdən 44 278 nəfər şəxs müayinədən keçib.

Ötən il Respublika Narkoloji Mərkəzində 30 655 nəfər sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən keçib.

Mərkəz ölkədə narkomaniya ilə mübarizə sahəsində bir sıra layihələr icra edir. Problemin müxtəlif aspektlərini işıqlandıran "Narkotiklər haqqında həqiqəti bilin" adlı jurnal, "Alkoqolizm" və "Psixoaktiv maddələrdən asılılıq" adlı ümumilikdə 175000 ədəd buklet və müxtəlif əyani vəsait (broşür, yaddaş vərəqi, cib təqvimləri və s.) çap edilib və yayılıb.

Səhiyyə Nazirliyi tərəfindən Respublika Narkoloji Mərkəzi üçün 250 çarpayılıq müasir standartlara cavab verən yeni bina inşa olunur. Mərkəzdə reabilitasiya, intensiv terapiya, psixoterapiya, ixtisaslaşdırılmış tibb şöbələrinin, laboratoriyaların (kliniki, biokimyəvi və toksikoloji) fəaliyyət göstərməsi nəzərdə tutulub.

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**

tibb elmləri namizədi, təcrübəli həkim

**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**

**Tel (051) 634-40-01.**

YENİ MÜSAVAT
N 77 (6398) 12 aprel 2016

# Bakıda "narkotik" satan kafelər

## "Turizmin inkişafı üçün təbii ki, bu kimi kafelərin olması faydalıdır"

**Axşam vaxtı Bakının mərkəzində brend geyim mağazalarında iş saatı bitdiyi üçün insanların mağazaları gəzmək kimi məşğuliyyətlərinə də son qoyulur. Bu səbəbdən də axşamlar Bakı sakinlərini və şəhərimizin qonaqlarını ya parklarda gəzərkən, yaxud da Bakıda hər il yenisi açılan brend kafelərdə görmək olar...**

Müşahidələrimiz nəticəsində öyrəndik ki, gecələr yerli sakinlər kafelərdə daha çox yemək yeməyə üstünlük versələr də, xarici qonaqlar müxtəlif növ sərin içkilər içməyə, ya da qəhvəyə daha çox önəm verirlər. Qəhvələr isə Bakıda artıq bahalı sayıla biləcək içkilər sırasına daxildir. Bakıda elə kafelər var ki, bir fincan qəhvəni 12-20 manata satırlar. Bu kafelərdə daha çox xaricilər, xüsusilə də ərəblərə rast gəlmək olur.

Burada bir məqamı da qeyd edək ki, dünyada qəhvə içmək son zamanlar artıq sanki bir kübarlıq əlaməti, dəb halına gəlib. Bəs qəhvəyə maraq yalnız dəblə bağlıdır?












### Qəhvədən asılılıq və "narkotik" təsiri

**Qəhvənin insanlarda asılılıq yaradıb-yaratmaması ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybullanın fikirlərini aldıq. A. Qeybulla musavat.com-a bildirdi ki, əsas məsələ qəhvəni qədərində içməkdir:**

"Necə ki, biz çaydan və ya müxtəlif içkilərdən müəyyən qədər asılıyıq, qəhvə də elədir. Sadəcə, qəhvənin tərkibində kofein var. Kofein isə sinir sisteminin stimulyatoru sayılır. Ona görə də kofeinə müəyyən qədər asılılıq ola bilər. Bu isə daha çox sinir sistemində zəiflik, yorğunluq olan adamlara aiddir. Qəhvə içmək bir vərdişdir və bunun da özəyində psixoloji asılılıq dayanır. Getdikcə isə bu, stomatik asılılığa çevrilə bilər. Ümumiyyətlə, bütün stimulyatorlara, dopinqlərə müəyyən müddətdən sonra asılılıq yaranır. Bu, qəhvədə də belədir. Hesab edirəm ki, hər şeyin bir həddi var və insanlar buna əməl etməlidirlər".

Məhz bu asılılıq faktoruna görə bəzən qəhvəni narkotiklə də müqayisə edirlər. Yəni necə ki, insan bir müddət narkotik qəbul etdikdən sonra orqanizmi artıq onu tələb edir, qəhvə də demək olar ki, bu cürdür. Çox miqdarda kofein qəbulu isə getdikcə ürək ritminin pozulmasına səbəb olur.

Qəhvəxanalarda valideynləri ilə birlikdə uşaqların da kofe içdiklərinin şahidi oluruq. Tibbi araşdırmalara görə, qəhvə böyüklərdən daha çox uşaqlara ziyandır. Yetkin bir insanın ay ərzində qəbul edəcəyi yuxarı doza kofein 5-10 qramdan artıq olmamalıdır. Bu 57 stəkan "Neskafe", 86 qəhvə fincanı qəhvə, 161 stəkan çaya bərabər deməkdir. Kiçik uşaqların isə ay ərzində qəbul edəcəyi yüksək doza 1 qramdan daha az olaraq müəyyənləşdirilir. Həddindən çox qəhvə qəbul etməyin miqrenə, xərçəngə, qida həzminin pozulmasına yol aça biləcəyi tibb tərəfindən təsdiqlənib...

Ekspertlər brend kafelərə, eləcə də qəhvə verən kafelərə fərqli yöndən yanaşırlar. Onlar hesab edirlər ki, xüsusilə turizm sahəsinin inkişafı, ölkəyə turistləri cəlb etmək üçün bu kimi kafelərə ehtiyac var.

**Mövzu ilə bağlı musavat.com-a danışan iqtisadçı alim Vüqar Bayramov bildirib ki, Bakıda brend kafelər nə qədər çox olarsa, o qədər faydalıdır:** "Turizmin inkişafı üçün təbii ki, bu kimi kafelərin olması faydalıdır. Lakin bu, həlledici məqam deyil. Bu sektorun inkişafını stimullaşdıran amildir. Brend kafelərin olması turistlərin cəlb edilməsi baxımından önəmlidir. Misal üçün, "Starbucks coffee"nin Bakıda olması yaxşı haldır. Çünki xaricilər buranın qəhvəsini içməkdə maraqlıdırlar. Lakin turizmin inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsi daha vacibdir. Misal üçün, bu ilin Novruz bayramı ərəfəsində Bakıya gələn turistlər valyutadəyişmə məntəqələrində xarici valyuta tapa bilmirdilər. İlk olaraq turist gətirdiyi valyutanı dəyişməlidir ki, sonra bu kimi xidmətlərdən istifadə edə bilsin. Nəticə olaraq qeyd edə bilərik ki, brend kafelərin ölkəyə gəlməsi müsbət haldır və bunu davam etdirmək lazımdır".

### Qəhvənin tarixi

Öncə qeyd edək ki, qəhvə sözünün ərəbcədən tərcüməsi "ehtiraslandıran içki" deməkdir. Onun stimullaşdırıcı təsirə malik olmasının səbəbi kimi tərkibində kofeinin olması göstərilir.

Tarixinə gəlincə isə ilk dəfə qəhvə Həbəşistanın cənub-qərbində aşkar olunub. Daha sonra isə Mərkəzi Ərəbistana gətirilir və Yəmənin cənub-qərb hissəsində becərilir. Bu günə kimi də Yəmən dünyada ən böyük qəhvə istehsalçısıdır. Bununla yanaşı, hazırda dünyada 50-dən çox ölkədə qəhvə bitkisi növləri becərilir.

Qəhvənin hazırlanmasının ən qədim üsulu Həbəşistan üsulu sayılır.

Qahirəyə qəhvə ilk dəfə 1532-ci ildə gətirilib. Paralel olaraq Suriya və Kiçik Asiyaya da yayılır. Qəhvənin təbiqi 1538-ci ildə Yəmənin işğalından sonra daha da güclənir. 1554-cü ildə Osmanlı imperiyasında gedən çəkişmələrdən sonra Konstantinopolda (İstanbulda) qəhvə evi açılır.

Mənbələrə görə, qəhvənin Avropaya yayılması 1592-ci ilə təsadüf edir. Belə ki, qeyd etdiyimiz il İtaliyaya gətirilən qəhvə oradan Avropaya yayılır.

1645-ci ildə Venedihdə, 1650-ci ildə Oksfordda və 1652-ci ildə Londonda qəhvə evləri mövcud idi. Fransada ilk dəfə qəhvə evi 1659-cu ildə tikilir. Vyanada qəhvə evi 1683-cü ildə türklərə qarşı müharibədə ələ keçirilmiş 500 kisə qəhvə qənimətindən sonra açılıb. Almaniyaya qəhvə Fransadan gətirilir və ilk dəfə olaraq 1673-cü ildə Bremendə qəhvə evi təşkil olunur. 1899-cu ildə İsveçrə kimyaçısı Maks Morqentaller qəhvə tozunu düzəldir. Həll olan qəhvə XX əsrin 40-cı illərindən başlayaraq geniş yayılır.

❑ **Əli RAİS**

# Paytaxtda baha qiymətə nübar meyvələr satılır

## Çiyələk 5, alçanın 100 qramı 4, qarpızın bir kilosu 2, əriyin yarım kilosu isə 10 manatdır...

**Paytaxt bazarlarında artıq mövsümündən tez yetişən nübar meyvələrə rast gəlinir. Bir çox bazarları, meyvə-tərəvəz mağazalarını alça, çiyələk, ərik, gavalı və qarpız kimi nübar meyvələr bəzəyir. Əvvəllər dənə ilə od qiymətə satılan bu meyvələr indi plastik qabda nisbətən ucuz satılır.**





Baş çəkdiyimiz "Yaşıl bazar"da səliqə ilə düzülmüş bu meyvələrin yanından etinasız keçmək olmurdu. Ancaq qiymətləri baha və təbii yetişən meyvə olmadığı üçün alıcısı azdır. Onlar nübar meyvələrin alıcılarının daha çox uşaqlar və hamilə qadınlar olduğunu bildirirdilər. Qiymətlərə gəlincə isə çiyələyin 700 qranlıq plastik qabda bağlaması 5 manata, alçanın 100 qramı 4 manata, qarpızın bir kilosu 2 manata, üzüm 4 manata, gavalı 10 manata, əriyin yarım kilosu isə 10 manata satılırdı. Satıcılardan meyvələri haradan gətirdiyi ilə maraqlandıq. **Alça və çiyələk satıcısı Elxan Məmmədov** dedi ki, satdığı yerli məhsuldur: "Parnikdə yetişən yerli məhsuldur. Dadının necə olduğunu deyə bilmərəm, çünki dadmamışam. Amma yaxşı çiyələyə oxşayır. Bizə də baha gətirirlər. Ona görə də bir dənəsinin də olsa itkiyə getməsini istəmirəm".

**Digər satıcı Səftər Əliyev isə çiyələk satmasına peşman olduğunu dedi:** "Alıcısı yoxdur. Günlərlə qalanda da xarab olur. Alanlar çox azdır. Bəzən elə aldığım qiymətə satıram ki, qalıb xarab olmasın".

**Qarpız satıcısı isə əhalinin qarpız almağa qorxduğunu dedi:** "Gəlib baxıb qiymətini soruşub gedirlər. Alan yoxdur. Amma çox yaxşı qarpızdır. Düzdür, heç nə vaxtında yetişən meyvənin dadını vermir. Amma hər halda, meyvələrdən tez dadmaq da pis deyil".

**Alça alan alıcıya yaxınlaşıb vaxtından əvvəl yetişdirilən meyvələrlə bağlı fikrini aldıq. Alıcı Gülnar Ağayeva alçanı görüb ürəyi istədiyini dedi:** "Alçaları elə parıldadıb qoyublar ki, almadan keçmək olmur. Ürəyim istədi deyə 100 qram aldım. Dadı yəqin ki, yaxşı olar. Amma çiyələk, ərik, qarpız almağa qorxuram".

**Digər alıcı Afaq Quliyeva isə hər nemətin öz vaxtında yeyilməsinin doğru olduğunu düşünür:** "Mən bütün meyvələri öz təbii yetişmə vaxtında yeyirəm. Çünki indi bu meyvələrin heç birinin dadı yoxdur".

Mütəxəssislərin fikrincə, süni istilik və hormonlarla yetişdirilən hansısa meyvənin keyfiyyəti öz iqlimində, təbii istilikdə yetişən meyvənin keyfiyyəti qədər olmur. Mütəxəssislər iyunda albalı, alça, ərik, şaftalı, tut, təzə kartof, təzə paxla, göy noxud, bibər, pomidor, xiyar, kol paxlası, iyul ayında ərik, şaftalı, yemiş, sarı alça, qarpız, gilas, təzə paxla, badımcan, bolqar bibəri, avqust ayında isə yemiş, armud, şaftalı, albalı, böyürtkən, əncir, üzüm, bibər, balqabaq, qarğıdalı yeməyi daha məqsədə uyğun hesab edir.

Hazırda satışda olan və plastik qablarda saxlanılan meyvələr bizim sağlamlığımız üçün ciddi təhlükə mənbəyi hesab edilir. Məsələn, ərik dərildikdən sonra üç-beş gündən artıq qalmamalıdır. Çünki ərik tez xarab olan meyvədir. Ticarət şəbəkəsində əriyin yaxşı və keyfiyyətli qalması üçün onu -0,5 dərəcə C + 0,5 dərəcə C temperaturda saxlamaq lazımdır. Ev şəraitində isə +5 dərəcə C +8 dərəcə C temperaturda saxlanıla bilər. Əriyin saxlanması zamanı nisbi rütubətliyi 90% olmağı məqsədəuyğundur. Mütəxəssislər qarpız, yemiş kimi bostan məhsullarının isə yetişmə vaxtının iyul ayının sonları, avqust ayının əvvəlləri olduğunu bildirirlər. Onların sözlərinə görə, iki ay yarıma ərsəyə gələn qarpızın yetişməsi üçün effektiv temperatur göstəricisinə yalnız həmin aylarda təsadüf olunur. Vaxtından tez bazarda yer alan məhsullar isə əsasən xaricdən idxal edilən və istixanalarda yetişdirilən məhsullardır. Vaxtından əvvəl yetişdirilmə, süni becərilmə zamanı isə kimyəvi birləşmələrdən istifadə edilməsi nəticəsində qarpızların tərkibində nitratların və azotlu birləşmələrin olması barədə həmişə xəbərdarlıq edilib. Bu səbəbdən də onlardan istifadə zamanı müxtəlif xəstəliklər, zəhərlənmə hallarının ola biləcəyi söylənilir. Ümumilikdə vaxtından əvvəl yetişən məhsulların hamısının insan orqanizminə mənfi təsir göstərdiyi bildirir. Çünki vaxtından əvvəl yetişdirilən məhsullarda kimyəvi maddələrdən istifadə edilir. Bu da birbaşa insan orqanizminə mənfi təsir edir və zəhərlənmələrə səbəb ola bilər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

N 77 (6398) 12 aprel 2016




## Evdən çıxmayan yapon gənclər

Yaponiyada son illərdə minlərlə evdən çıxmayan gənc peyda olub. Onlar hikikomori adlanırlar. Özünü cəmiyyətdən ayıran uşaqlara belə ad qoyulub. Hikikomori yaponların həyatdan əlini, ətəyini çəkib, otaqlarından belə çıxmaqdan imtina edən 1.2 milyon yapon gəncinin durumuna verdiyi addır. Onlar ya evin hamamında, ya mətbəxində, ya da hər hansı bir otağında yaşayır, ordan bayıra çıxmırlar. Amma bu açıqlanan rəqəm də dəqiq deyil. Çünki hikikomorilər evlərində gizləndikləri üçün dəqiq bir rəqəm söyləmək mümkün deyil. Bu, müasir texnologiyaların yaratdığı bir xəstəlik kimi qiymətləndirilsə də, onun mərkəzində başqa səbəblər dayanır. Əsasən orta təbəqə ailələrin oğlan uşaqlarında meydana gələn bu halı bəsit tənbəllik adlandırmaq olmaz. Uşaqların intiharı, ya da məktəbə getmək istəməyib, evə qapanmasına, təhsil sistemindəki imtahan çoxluğu, ağır rəqabət və ailələrin dərslərlə bağlı onlara təzyiqini səbəb kimi göstərirlər. Gənclər texnika ilə maraqlanaraq, özünü sosial çevrəyə kilidləyir. Kompüter ekranı ilə virtual dünyada özünə ünsiyyət qurur. Bu əlaqə elə bir səviyyəyə çatır ki, artıq insan bütün ehtiyaclarını öz otağında qarşılayır. Yeməyini ailəsi ilə yemir, otağında həm yeyir, həm yatır, həm də kompüterindən ayrılmır. Hətta xəstəlik o qədər ciddi səviyyəyə çatır ki, gənc ayaqyolu ehtiyacını belə öz otağında qarşılayır.

# 3 yaşından kiçiklər televizora baxmamalıdır

İngiltərənin məşhur psixoloqlarından olan Aric Siqman valideynlərə məsləhət görüb ki, uşaqların televizora baxdıqları saata müəyyən məhdudiyyətlər gətirsinlər. Onun dediyinə görə, yaşı 3-dən aşağı olan uşaqlar isə ümumiyyətlə televizora baxmamalıdır. Sigman deyib ki, kompüter, "ağıllı" telefonlar, habelə televizor şişmanlıq, ürək xəstəliyi və diabet riskini artırır: "Bunların xaricində daim ekran qarşısında olmaq ciddi psixoloji pozğunluqlara və diqqətin dağılmasına da səbəb olur".

Psixoloq onu da deyib ki, ekran başında keçirilən müddət uşaqların sosial münasibətlər qurmasına neqativ mənada təsir göstərir. Belə ki, televizordan əlavə, uşaqlar 5 ayrı ekranın hücumuna məruz qaldıqları üçün beyinləri yüklənir. Bundan başqa, psixoloq televizoru da "elektrik dayə" adlandırıb.



# Hipnoz yolu ilə soyğunçuluq edirmiş

Türkiyənin Adana şəhərində qəribə bir oğru tapılıb. Alış-veriş mərkəzlərində gənc qadınların və qızların çantalarını, pul qablarını oğurlayan 37 yaşlı A.T adlı vətəndaş polis tərəfindən yaxalanıb. Oğru polisə ilk ifadəsində bildirib ki, onun bu əməlini oğurluq adlandırmaq haqsızlıqdır. Çünki o, insanları inandıraraq pullarını alıb. Zərərçəkən qismində ifadə verən qadınlar isə bildiriblər ki, A.T onların çantasını oğurlayıb qaçmayıb. Heç zorla pul qablarını da götürməyib: "O, bizimlə tanış olandan sonra şirin-şirin söhbət edirdi. Telefon nömrəsini verirdi, bizim nömrəmizi alırdı və zəngləşib görüşəcəyimizi deyirdi. Amma o, gedəndən sonra mən və rəfiqəm hiss etdik ki, çantamızdakı bütün pullarımız oğurlanıb". Bunu G.P adlı zərərçəkən qadın deyib.

Oğru isə bildirib ki, qadınlardan zorla heç nə almayıb, onlar könüllü şəkildə ona pullarını və zinət əşyalarını veriblər: "Mən istedadlı bir hipnozçuyam. Bu isə suç deyil".







## Google-dan onları unutmasını xahiş edirlər

Google şirkətinin "unudulma haqqı"ndan istifadə etmək istəyən on minlərlə vətəndaş şirkətə müraciət edib. Son olaraq müraciət edənlərin sayı 145 min nəfərdir. "Unudulma haqqı" əslində insanların google nəticələrindən adlarının silinməsi tələbini ehtiva edir. Google bu günə qədər daxil olan tələblərin 41.8 faizini həyata keçirib. Müraciət edənlərin ümumi statistikası göstərir ki, bu sahədə Fransa birinci yerdədir(29 bin 10 nəfər). İkinci sırada isə 25 bin 78 tələblə Almaniya dayanır. "Unudulma haqqı"nın detallarına gəlincə, insanlar özləri barədə məlumatları ancaq google-ın axtarış nəticələrindən sildirə bilirlər, ümumən həmin səhifələri sildirə bilmirlər. Türkiyə və Azərbaycan Avropa Birliyi üzvü olmadığı üçün bu xidmətdən faydalana bilməz.




QOÇ - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri dəqiqləşdirməlisiniz.

BUĞA - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

ƏKİZLƏR - Ümumi məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

XƏRÇƏNG - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dərdüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

ŞİR - Ulduzların düzümü ilk növbədə səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün öncə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtı evdə keçirin.

QIZ - Naharaqədərki müddətdə həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməməlisiniz. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

TƏRƏZİ - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

ƏQRƏB - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

OXATAN - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

OĞLAQ - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

SUTÖKƏN - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

BALIQLAR - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Gecə kafeyə girdi, özünə yemək hazırladı



Vaşinqtonda adı açıqlanmayan bir kişi ac olduğu üçün qapalı fast-food restoranlarından birinə girib və özünə çizburqer hazırlayıb. Kafenin içindəki gizli kamera ilə kişinin hərəkətləri qeydə alınıb. İçəridə kameranın olduğunu bilsə də, kişi üzünü gizlətməyə ehtiyac görməyib və olduqca rahat davranıb. "ABC News"un xəbərinə görə, kişi kafenin sonuncu işçisinin də gedişini gözləyib, ondan sonra ora daxil olaraq özünə yemək hazırlayıb. Amerikalı kassadan pul götürməyib. Sadəcə, çıxanda özü ilə su butulkası aparıb.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750